AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 15 (1415), 9 - 15 aprel 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda Paralimpiya hərəkatının daha da inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasını möhkəmləndirmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Komitəyə 500 000 (beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 aprel 2019-cu il.*



Sonra dizayner Yuliya Brayçukun hazırladığı və Novoqrudka zavodunda istehsal edilmiş məşəl iştirakçılara təqdim olunub. O, paslanmayan poladdan düzəldilib, çəkisi isə 1,7 kiloqramdır. Təşkilatçılar bildiriblər ki, bu çəkini əldə uzun məsafəyə daşımaq çətin olduğundan, onu velosiped, yaxud əlil arabasına bərkitmək nəzərdə tutulur. Məşəl dünya standartlarına uyğun olaraq 15 dəqiqə ərzində yanır ki, bu da

## II Avropa Oyunlarının "Sülh məşəli" estafetinin təqdimatı olub

Minskdə II Avropa Oyunlarının "Sülh məşəli" estafetinin təqdimatı ilə bağlı təntənəli mərasim keçirilib. Oyunların təşkilatı fondunun rəhbəri Georgi Katulin mərasimdə çıxış edərək deyib: "Bu gün biz II Avropa Oyunlarının "Sülh məşəli" estafetini təqdim edirik. Onun məqsədi məhz adında ifadə olunub: bu multiidman forumunun əsas məqsədi Avropanın bütün ölkələrini möhtəşəm idman bayramının ətrafında birləşdirmək və Oyunları 2019-cu ilin ən parlaq hadisəsinə çevirməkdir".

estafeti əvəz edənlərə lazımi məsafəni qət etməyə imkan verir.

Məşəl estafeti mayın 3-də İtaliyanın paytaxtı Romada start götürəcək, Avropanın 8 ölkəsindən keçməklə 50 gündən sonra - iyunun 21-də Minskin "Dinamo" stadionunda keçiriləcək təntənəli mərasimdə alovlandırılacaq.

Mərasimdə Belarus dizayneri Yuliya Latuşkinanın hazırladığı estafet iştirakçılarının geyim forması da təqdim olunub.



## İslam Həmrəyliyi İdman Federasiyasının yeni prezidenti seçilib

Aprelin 8-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) Baş Assambleyasının iclası keçirilib. İclasda İHİF-in və Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə iştirak edib. Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov və MOK-un marketinq şöbəsinin rəisi Mehman Kərimov da tədbirə qatılıblar.

İHİF-in prezidentliyinə namizəd, Səudiyyə Ərəbistanı Olimpiya Komitəsinin prezidenti, Şahzadə Abdulaziz bin Turki Alfaisal tədbiri giriş sözü ilə açaraq iştirakçıları salamlayıb. İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yousef bin Ahmed Al-Osaymin, prezident səlahiyyətlərini icra edən Hamad Kalkaba Malboum hesabat məruzələr ilə çıxış ediblər. Sonra federasiyaya prezident seçkiləri keçirilib. İHİF-in İcraiyyə Komitəsi üzvlərinin yekdil səsi ilə Şahzadə Abdulaziz bin Turki Alfaisal qurumun prezidenti seçilib.

## "Açıq Slovakiya Çempionatından qızıl medal

Bratislava şəhərində təşkil edilən aerobika gimnastikası üzrə "Açıq Slovakiya çempionatı"na yekun vurub.

15 ölkədən idmançıların iştirak etdiyi turnirdə ölkəmiz fərdi, qarışıq cütlük, üçlük və qrup çıxışlarında təmsil olunub. Milli mizin üzvləri Mədinə Mustafayeva, Nərminə Hüseynova, Balaxanım Əhmədova, Vladimir Dolmatov və İmran İmranovun qrup proqramında icra etdikləri proqram onlara yarışların qızıl medalını (19.344) qazandırıb.

Gimnastlarımızın daha bir uğurlu çıxışı isə üçlük proqramında olub. Emil Quliyev, Elçin Məmmədov və V. Dolmatov 19.800 xalla turnirin gümüş medalını boyunlarından asıblar. Turniri qarışıq cütlükdə gimnastlarımız İmran və Mədinə 6-cı, fərdi çıxışlarda Elçin 5-ci, Nərminə isə 7-ci yerdə başa vurublar.

9-11 yaşlı gimnastların mübarizəsində isə yeganə təmsilçimiz Məryam Topçubaşova fərdi proqramda çıxış edərək, qızıl medal qazanıb. Məryamın çıxışı hakimlər tərəfindən yüksək qiymətləndirilərək, 32 idmançı arasında 1-ci yerə layiq görülüb.

## Antalya Qran-prisində uğurlu çıxış

Türkiyənin Antalya şəhərində cüdo üzrə Qran-pri yarışı keçirilib.

Yarışda 75 ölkədən 479 (291 kişi, 188 qadın) cüdoçu mübarizə aparıb. Turnirin ilk günündə Azərbaycan millisi hesabına bir medal yazdırıb. Qadınlar arasında 52 kq çəki dərəcəsində mübarizə aparan Gültac Məmmədəliyeva yalnız bir görüşdə uduzaraq bürünc medal qazanıb. Azərbaycan cüdoçusu 3-cü yer uğrunda görüşdə Olimpiya çempionu, braziliyalı Sara Menezeşi məğlub edib. Yarışın ikinci günündə cüdoçumuz Rüstəm Orucov gümüş medal qazanıb. Finala qədər Koreya, Qambiya, Ukrayna və Rusiyadan olan rəqiblərinə qalib gələrək uğurla irəliləyən R.Orucov (73 kq) həlledici qarşılaşmada Koreya Respublikasının təmsilçisi Çanqrim Ana uduzaraq gümüş medala layiq görülüb. Beynəlxalq turnirin son günü Azərbaycan cüdoçuları daha 2 medala sahib olublar. Qadınların yarışında ölkəmizi təmsil edən İrina Kindzerska (+78 kq) bütün rəqiblərinə qalib gələrək Qran-prinin çempionu olub. İrina Antalyada Monqolustan, İsrail, Rusiya və Braziliya cüdoçularını məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.



Kişi cüdoçular arasında mübarizə aparan Elmar Qasımov (-100 kq) yalnız bir görüşdə uduzaraq bürünc medala layiq görülüb. Elmar 3-cü yer uğrunda qarşılaşmada Misir idmançısı Ramazan Dərvişə qalib gəlib. Beləliklə, Azərbaycan cüdoçuları Türkiyədə təşkil olunan nüfuzlu yarışı 4 medalla (1 qızıl, 1 gümüş və 2 bürünc) başa vurublar.

## Olimpizm

### İtaliya BOK-un tələbləri ilə razıdır

İtaliya hökuməti Olimpiada-2026-ya ev sahibliyi etmək iddiasında olan Milan və Kortina d` Ampetso şəhərləri qarşısında Beynəlxalq Olimpiya Komitəsinin (BOK) qoyduğu tələblərlə razılaşdığını bildirib.

"İnside the Games" portalının verdiyi xəbərə görə, qarşıya qoyulan tələblərdən biri də 415 milyon avroya başa gələn və təhlükəsizliklə bağlı büdcədir. İtaliya həm də viza və insan hüquqlarının müdafiəsi məsələsini də üzərinə götürüb.

Məlumat üçün bildirək ki, Olimpiada-2026 uğrunda İtaliyadan başqa, İsveç (Stokholm) də mübarizə aparır. Qalib şəhərin adı bu ilin iyununda açıqlanacaq.

### Tennis turniri yeni formatda keçiriləcək

Tokio-2020 Olimpiadasından etibarən kişilər arasında tennis turniri 3 setdən ibarət olacaq. Bu barədə Beynəlxalq Tennis Federasiyası (İTF) məlumat yayıb.

Qeyd edək ki, indiyə qədər yarışlar 5 setdə təşkil edilib.

Bundan başqa, cütlüklərin yarışlarında da dəyişiklik edilib. Belə ki, 3-cü setin yerinə 10 xallıq tay-brek oynanılacaq.

Reqlamentdə dəyişiklik idmançıların kortda çox vaxt itirməsinin qarşısını almaq üçün qəbul edilib.

Beləliklə, olimpiada tennis turnirinin yeni formatı Tokio-2020-dən etibarən həyata keçiriləcək.

XXXII Yay Olimpiya Oyunları 2020-ci ildə Yaponiyada, iyul-avqust aylarında keçiriləcək.

## Anons

*Avropa çempionatının medalçıları ilə görüş keçirilib* Səh. 2

Bədii gimnastlarımız Polşada uğurlu çıxış nümayiş etdirdilər Səh. 2

*OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü* Səh. 3

Sağlam bədən sağlam fikirlərin daşıyıcısıdır Səh. 5

*Şuşanın "Qala" komandasının məşqçisi* Səh. 6

# Avropa çempionatının medalçıları ilə görüş keçirilib

*Gənclər və İdman Nazirliyində İspaniyanın Qvadalaxara şəhərində keçirilmiş Avropa çempionatında medal qazanan karateçilərlə görüş olub.*



Nazirliyin idman şöbəsinin müdiri Fərid Mansurov tədbirdə çıxış edərək karate üzrə komandamızın çempionatda uğurla mübarizə apardığını bildirib. Karateçilərimizin əsas hədəfinin Tokio-2020 Yay Olimpiya Oyunlarına vəsiqə qazanmaq olduğunu vurğulayan F.Mansurov deyib: "Karate üzrə komandamızın qitə çempionatında uğuru bizi çox sevindirir. Son vaxtlar karate üzrə yarışlarda rəqabət xeyli artıb. Karateçilərimiz medal qazanmaqla yanaşı, Olimpiya Oyunlarına lisenziya xalları da toplayırlar. Milli komandanın lideri Rafael Ağayev qitə çempionatında daha bir nailiyyət qazanıb. Əsas hədəf Olimpiya Oyunlarıdır. Əminik ki, karateçilərimiz Olimpiya Oyunlarında da böyük nailiyyətləri ilə bizi sevindirəcəklər".

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov Avropa çempionatına ciddi hazırlaşan komandamızın nəticələrinin qənaətbəxş olduğunu vurğulayıb: "Bu il digər Olimpiya idman növləri kimi, karate üçün də ciddi sınaq dövrüdür. Komandamızın üzvlərinin olimpiadaya lisenziya qazanmaq şansları kifayət qədər yüksəkdir. İdmançılarımız artıq lisenziya xalları yığmağa başlayıblar. İnanıram ki, Rafael Ağayev Olimpiya lisenziyası qazanıb, dördilliyin zirvə yarışında Azərbaycanın dövlət himnini səsləndirəcək".

Federasiya prezidenti İrina Zaretskanın da Olimpiya şanslarını yüksək qiymətləndirib. O, qeyd edib ki, olimpiadaya lisenziya xalları verən sonuncu qitə yarışı Milli Gimnastika Arenasında keçiriləcək 55-ci Avropa çempionatı olacaq. Yığmanın əsas üzvlərinin hamısının lisenziya qazanmaq şansları var. Olimpiya Oyunlarına dörd vəsiqə qazansaq, bu, yaxşı nəticə olacaq.

Karate üzrə yığma komandanın böyük məşqçisi Şahin Xudaverdiyev bildirib ki, Avropa çempionatında nəticələr bir qədər də yaxşı ola bilərdi. O, qarşıdakı yarışlarda daha yüksək nəticələrə ümid etdiyini bildirib: "Final qarşılaşmasında Rafael Ağayev məğlub olmadı. Yarışın sonuna 26 saniyə qalmış hesab açılmadığından hakimlər italiyalı karateçinin hər hərəkətinə xal verdilər. Həmin bir xal da döyüşün taleyini həll etdi. Medallar çox ola bilərdi. Ayxan Mamayevin bəxti gətirmədi və bir xal fərqi ilə məğlub oldu. Burada hakim ədalətsizliyi də rol oynadı. Ümumilikdə, nəticələri yaxşı hesab edə bilərik. Ümid edirik ki, qarşıdakı yarışlarda daha yüksək nailiyyətlər qazanacağıq".

İştirak etdiyi bütün yarışlarda Azərbaycanı yüksək səviyyədə təmsil etməyi qarşıya məqsəd qoyduğunu bildirən Rafael Ağayev deyib: "Komandamızı qarşıda bir sıra yarışlar gözləyir. Bütün yarışlar önəmlidir. Azərbaycanı yüksək səviyyədə təmsil etməyi qarşıya məqsəd qoymuşuq. Əsas hədəfimiz 2020-ci ildə keçiriləcək Tokio Yay Olimpiya Oyunlarıdır. Eyni zamanda, ikinci Avropa Oyunlarına da ciddi hazırlaşırıq. Arzum ikinci dəfə Avropa Oyunlarının qalibi olmaqdır".

Avropa çempionatının bürünc medalçısı Asiman Qurbanlı çıxışında Tokio-2020-yə lisenziya qazanmaq üçün var gücü ilə çalışacağını deyib: "Ciddi zədə üzündən əməliyyat olunduqdan sonra nəticələrim bir qədər zəiflədi. Avropa çempionatında bürünc medal qazanmağım məni çox sevindirir. Əsas məqsəd Olimpiya Oyunlarına lisenziya qazanmaqdır. Ümid edirəm ki, məqsədimə nail olacağam".

Qeyd edək ki, İspaniyanın Qvadalaxara şəhərində keçirilmiş Avropa çempionatında parakarateçilərin yarışında Azərbaycan idmançısı Sahib Əhədov Avropa çempionu tituluna yiyələnib. Fərdi kumite yarışlarında Rafael Ağayev (75 kq) gümüş, Asiman Qurbanlı (+84 kq) bürünc medal qazanıb. Kata yarışlarında isə Roman Heydərov üçüncü yeri tutub.

# Paralimpiyaçılarımız Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər

Azərbaycanda Paralimpiya Hərəkatı 1996-cı ildə yaradılıb. Həmin il ölkəmizi Atlanta Paralimpiya Oyunlarında cəmi iki idmançı təmsil edib. Ötən müddətdə ölkəmizdə paralimpiya hərəkatı daha da inkişaf edib. Bu gün beynəlxalq yarışlarda ölkəmizi yüzlərlə paralimpiyaçı təmsil edir, dövlət bayrağını yüksəklərə qaldırırlar. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə dair aprelin 4-də imzaladığı Sərəncam ölkəmizdə Paralimpiya ailəsi tərəfindən sevinclə qarşılanıb. İdmançılarımız əmindirlər ki, Prezidentin bu addımı ölkəmizdə paralimpiya hərəkatının daha da inkişaf etməsinə mühüm töhfə verəcək.

Paralimpiyaçı idmançılar onlara göstərilən yüksək diqqət və qayğının növbəti təzahürü olan bu nəcib addıma görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildiriblər.

İkiqat Paralimpiya çempionu Zəkiyev Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısını daim hiss etdiklərini vurğulayaraq deyib: "Bu gün ölkəmizdə Paralimpiya ailəsinə qoşulan idmançıların sayı yüzlərlədir. Dövlətimizin başçısı İlham Əliyevin dəstəyi sayəsində ölkəmizdə Paralimpiya hərəkatı gündən-günə inkişaf edir. Bu, İlham Əliyevin idmana - xüsusilə də Paralimpiyaya qayğısının nəticəsidir. Hər bir yarışda bu qayğının və məsuliyyəti üzərimizdə hiss edirik".

Pekin-2008 Yay Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev dövlətimizin başçısının imzaladığı Sərəncamdan duyduğu sevinc hislərini bu sözlərlə ifadə edib: "Azərbaycan Prezidenti İlham Əliyev həmişə deyir ki, "Mən paralimpiyaçıların dostuyam". Dövlətimizin başçısının dostluğunu daim hiss etmişik. Bu dostluq bizim üzərimizə böyük məsuliyyət qoyur. Əsas məqsədimiz növbəti yarışlarda da qələbələr qazanmaq, medallara sahib olmaq və ən əsası vətənimizin bayrağını yüksəklərə qaldırmaqdır".

Azərbaycan Milli Paralimpiya Komitəsinin baş katibi Kamal Məmmədov deyib: "Prezident İlham Əliyev hər zaman paralimpiyaçılarımızın yanında olub. İmzalanan Sərəncam bir daha göstərir ki, dövlətimizin başçısı Azərbaycanın Paralimpiya ailəsinə necə diqqətlə yanaşır. Qarşıda bizi ən mötəbər yarış olan Tokio-2020 XVI Yay Paralimpiya Oyunları gözləyir. Dövlətimizin başçısının atdığı addımlar idmançılarımızı yeni-yeni qələbələrə həvəsləndirir. Bu Sərəncam bizə maddi dəstəklə yanaşı, daha çox mənəvi dəstək oldu".

Qeyd edək ki, aprelin 4-də Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, ölkəmizdə Paralimpiya Hərəkatının daha da inkişaf etdirilməsi məqsədilə Komitənin maddi-texniki bazasını möhkəmləndirmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Komitəyə 500 min manat vəsait ayrılıb.

# Bədii gimnastlarımız Polşada uğurlu çıxış nümayiş etdirdilər

Bədii gimnastlarımız Varşavada (Polşa) keçirilən "İrina Cup" adlı beynəlxalq turnirdə ölkəmizi layiqincə təmsil ediblər.



Yarışda ilk medal sevincini milli komandamızın gənclərdən ibarət qrup hərəkətləri komandası yaşadıb. Fəridə Səfiyarzadə, Milana Əkbərova, Mədinə Əsədova, Ləman Əlimuradova, Selcan Hacızadə və Nəzrin Cəfərzadədən ibarət qrup komandamız çoxnövçülük yarışlarında turnirin qızıl medalını qazanıblar.

Fərdi proqramda çıxış edən gimnastlarımız da yarışları uğurla başa vurublar. Belə ki, millimizin gənc və potensiallı üzvlərindən olan Nərminə Səmədova komandamızın hesabına 3 medal yazdırıb. Gimnastımız gürzlərlə və iplə hərəkətlərdə qızıl, çoxnövçülük proqramında isə bürünc medal qazanıb.

Uğurlu performansı ilə komanda yoldaşından geri qalmayan digər təmsilçimiz Arzu Cəlilova isə iplə hərəkətlərinə görə gümüş medala layiq görülüb.

* * *

Almaniyanın paytaxtı Berlində keçirilən idman gimnastikası üzrə ənənəvi "Junior Team Cup" adlı beynəlxalq turnirdə ölkəmizi Səməd Məmmədli təmsil edib.

Beynəlxalq turnirdə 26 ölkədən 140 gənc gimnast qüvvəsini sınayıb. Gimnastımız Səməd Məmmədli həmyaşıdları arasında fərqlənərək, bürünc medala layiq görülüb. Onun çıxışı hakimlər tərəfindən 12.850 xalla qiymətləndirilib.

Digər təmsilçimiz Rüstəm Əhməd isə öz yaş kateqoriyasında dəstəli atda finala vəsiqə qazanıb. Yekun mərhələdə gənc gimnastımız 12.200 xalla yarışı 4-cü yerdə bitirib.

# Güləşçilərimiz Avropa çempionatında yarışırlar

Rumıniyanın paytaxtı Buxarestdə güləş üzrə Avropa çempionatı keçirilir. Yarışda ölkəmizi sərbəst, yunan-Roma və qadın güləş üzrə yığmanın üzvləri təmsil edirlər. İlk yarış günündə 57 kq , 65 kq, 70 kq, 79 kq və 97 kq-da çıxış edən sərbəst güləşçilər mübarizəyə başlayıblar. Güləşçimiz Mahir



Əmiraslanov startda Moldova təmsilçisinə qalib gəlsə də, 1/4 finalda Türkiyə güləşçisinə uduzub.

Üçqat dünya və ikiqat Avropa çempionu Hacı Əliyev startda Belarus, daha sonra Ermənistan idmançısına qalib gəlib. 1/4 finalda Rusiya güləşçisinə də gücünü göstərən idmançımız adını yarımfinala yazdırıb.

Ağahüseyn Mustafayev də Avropa çempionatına uğurla başlayıb. Ardıcıl iki dünya çempionunu - Rusiya və Ermənistan pəhləvanını məğlub edən yığmamızın üzvü yarımfinala adlayıb.

Millimizin kapitanı Cəbrayıl Həsənov da qitə birinciliyinə inamlı start verib. İlk görüşdə gürcü güləşçi üzərində əzmkar qələbə qazanan ikiqat Avropa çempionu ardınca Almaniya idmançısını tam üstünlüklə məyus edib və yarımfinala yüksəlib.

Püşkdə bəxti gətirməyən Nurməhəmməd Hacıyev ilk görüşündə Olimpiya, dünya və Avropa çempionu Abdulrəşid Sadulayevlə qarşılaşıb və yarışı məğlub olaraq tərk edib.

Yarışlara aprelin 14-də yekun vurulacaq.

* * *

Aprelin 5-7-də Dağıstanın Kaspiysk şəhərində gənc yunan-Roma güləşçiləri arasında Surakat Asiyatilovun xatirə turniri keçirilib. Yarışda komandamız gənclərdən ibarət yığmamızın böyük məşqçisi Nurəddin Rəcəbov və məşqçi Zöhrab Abbasovun rəhbərliyi altında mübarizə aparıb. Millinin üzvü Zaur Əliyev (55 kq) gümüş medal qazanıb. Ramin İsrayilov (67 kq) və Sərxan Məmmədov (130 kq) isə 5-ci yerlə kifayətlənib. Xatırladaq ki, beynəlxalq dərəcəli hakim Cəlal Bahadurov bu yarışda ədaləti qoruyub.

# Komandamız beynəlxalq yarışı uğurla başa vurub

Xarkovda Sergey Danilçenkonun şərəfinə yeniyetmə boksçular arasında beynəlxalq turnir keçirilib.

Yeddi ölkənin təmsil olunduğu yarışı komandamız 6 medalla başa vurub. Turnirdə 46 kiloqram çəki dərəcəsində mübarizə aparan Nicat Hüseynov qızıl medala sahib olub. O, finalda ukraynalı Boqdan Roqoznıya 5:0 hesabı ilə qalib gəlib. Zaur Qəhrəmanov (48 kq) həlledici görüşdə Dmitri Molodana (Ukrayna) 2:3 hesabı ilə uduzaraq gümüş medalla kifayətlənməli olub. Digər boksçularımızdan Əli Ələsgərli (52 kq), Turğay Mirzəyev (57 kq), Rəmiş Cəfərov (75 kq) və Cəfər Heydərli (80 kq) yarışda üçüncü pillədə qərarlaşıblar.

* * *

Bakıda keçirilən "Böyük İpək Yolu" beynəlxalq boks turnirinə yekun vurulub. Komandamız turniri 4 qızıl, 3 gümüş və 8 bürünc medalla başa vurub.

Bu nəticə ilə komandamız ümumi hesabda birinci yeri tutub. İkinci pillədə Özbəkistan (3 qızıl, 2 gümüş, 3 bürünc medal), üçüncü yerdə isə Qazaxıstan (1 qızıl, 5 gümüş, 2 bürünc medal) yığmaları qərarlaşıb. Kamran Şahsuvarlı yarışın ən texnikalı boksçusu kimi təltif edilib.

Mükafatlandırma mərasimində Azərbaycan Boks Federasiyasının I vitse-prezidenti Ağacan Abıyevə Özbəkistan Boks Federasiyasının xüsusi hədiyyəsi təqdim olunub.

Qeyd edək ki, ənənəvi turnirdə Azərbaycan boksçuları ilə yanaşı, Rusiya, Qazaxıstan, Özbəkistan, Mərakeş, İraq, Türkiyə, Türkmənistan və Gürcüstan komandaları da mübarizə aparıblar.

# Yeniyetmə cüdoçularımız Avropa kubokunun qalibi oldular

Çexiyada yeniyetmə cüdoçular arasında keçirilən Avropa kubokuna yekun vurulub. Yarışın ilk günündə İsmayıl Qənbərli (50 kq), Kamran Süleymanov (55 kq) və Turan Bayramov (60 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Şükran Zamanlı (55 kq), Nahid İsmayılov (66 kq) yalnız finalda uduzaraq gümüş medala layiq görülüb. Səbinə Əliyeva (48 kq), Aydın Rzayev (55 kq) və Mətin Rzazadə (66 kq) isə bürünc medala sahib olub.

Beynəlxalq yarışın son günündə millimiz aktivinə daha bir medal yazdırıb. 57 kq çəki dərəcəsində yarışan Aytac Qardaşxanlı yalnız bir görüşdə uduzaraq bürünc medala sahib olub. Beləliklə, cüdoçularımız Avropa kuboku yarışında 3 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar. Yeniyetmə cüdoçularımız Çexiyanın Teplitse şəhərində keçirilən Avropa kuboku yarışının komanda hesabında medalların həm əyarı, həm də sayına görə 1-ci yeri tutublar. Millimizin baş məşqçisi Ramiz Ramizzadəyə yarışın kuboku təqdim olunub.

* * *

İtaliyanın Liqnano şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışı keçirilib. Beynəlxalq yarışda 35 ölkənin idmançıları ilə yanaşı, Azərbaycan cüdoçuları da mübarizə aparıblar. Komandamız yarışı 1



medalla başa vurub. Komandamıza yeganə medalı 60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Əhməd Yusifov qazandırıb. Təmsilçimiz Böyük Britaniya, Rumıniya, Rusiya və İtaliya idmançılarına qalib gələrək finala çıxıb. Həlledici qarşılaşmada italyalı rəqibi Alessandro Aramunu məğlub edən Azərbaycan cüdoçusu Avropa kubokunda 1-ci yeri tutub.




# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

Olimpizm gücü, iradəni və ağlı balanslaşdırılmış bir tam olaraq özündə birləşdirən həyat fəlsəfəsi kimi idmanın mədəniyyət və təhsillə vəhdətini nəzərdə tutur, humanist tərbiyə dəyərlərinə, ümumbəşəri etik prinsiplərə əsaslanır. Olimpizmin məqsədi idmanın insanın ahəngdar inkişafına xidmət etməsinə, sülhməramlı cəmiyyət yaratmağa, insan ləyaqətini qorumağa çalışmaqdır. Olimpiya idealları insanları bir-birinə qarşılıqlı hörmət, dostluq, qardaşlıq, anlaşma şəraitində yaşamağa çağırır. Olimpiya Hərəkatı bu məqsədlə mədəniyyətlərin yaxınlaşmasını, inam və inanclara hörmətlə yanaşmanı, dini, irqi ayrıseçkliyə yol verməməyi əsas götürür, müxtəlif xalqların, millətlərin nümayəndələrinin həmrəylik, həmfikirlik şəraitində birgə fəaliyyətini gerçəkləşdirir, bu ideyanı yayır, bunun üçün idman və mədəniyyətin, idman və təhsilin vəhdətindən istifadə edir. Böyük və kompleks idman tədbirləri, xüsusən də, Olimpiya Oyunları fərqli maddi sərvətlərə, adət-ənənələrə, mədəni irslərə malik müxtəlif xalqların nümayəndələrini bir yerə toplamaq imkanına malikdir. Bu imkan dünya miqyasında çox da böyük olmayan fasilələrlə daim gerçəkləşir. Beynəlxalq Olimpiya Komitəsi və Birləşmiş Millətlər Təşkilatı sıx əməkdaşlıq çərçivəsində idman tədbirlərinin qeyd olunan potensialından, daha doğrusu, müxtəlif millətlərin təmsilçilərini bir araya gətirmək imkanlarından daha səmərəli istifadə etmək üçün yeni-yeni yollar axtarır. Olimpiya mədəniyyəti və Olimpiya təhsili proqramları artıq sınaqdan çıxmış belə yollardan, vasitələrdən biridir. Bu proqramların əsas xüsusiyyətləri cərgəsində daha çox iştirakçını əhatə etmək, mədəniyyət və təhsil sahəsində daha çox bilik verməklə yanaşı, iştirakçılar arasında dostluq və qardaşlıq əlaqələri qurmaq, müxtəlif mədəniyyətləri, adət-ənənələri öyrənmək, fərqli ədəbiyyat, folklor nümunələri ilə tanış olmaq da yer alır. Hər bir iştirakçı həm öz, həm də başqa xalqların mədəniyyəti, incəsənəti, ədəbiyyatı, tarixi haqqında biliklər almaq imkanı qazanır. Azərbaycan Milli Olimpiya Komitəsinin əməkdaşı Mehman Kərimovun işləyib hazırladığı OCEP proqramı bütün bu məsələləri özündə birləşdirir. Ən önəmli faktlardan biri odur ki, proqramın əsasında qardaşlıq və dostluq, real kommunikasiya, ünsiyyət prosesində fəal iştirak durur. Proqramın özəlliklərindən biri də odur ki, sosial, şəbəkə, internet kommunikasiya, elektron ünsiyyət, feysbuk, instaqram, tvitter, sayt əlaqə və əməkdaşlığı gücləndirir, ünsiyyət iştirakçılarının sayını daim artırır.

OCEP-in şəbəkələşmə və təlimatlandırma işləri çərçivəsində qardaşlaşmış məktəblər layihə üçün yaradılmış xüsusi sosial media platforması vasitəsilə mərkəzləşmiş şəbəkəyə qoşulublar. Beləliklə, 2 dildə (Azərbaycan və ingilis) fəaliyyət göstərən virtual şəbəkə fəaliyyətə başlayıb. Onun vasitəsilə məktəblərin bir-biri ilə, həmçinin xarici aləmlə əlaqə və ünsiyyəti təmin olunub. Milli Olimpiya Komitəsi bu şəbəkə vasitəsilə AYOF və Olimpiya hərəkatı, mədəniyyət, Olimpiya təhsili məlumatlarını yaymağa başlayıb.

OCEP proqramında iştirak edən məktəblər təhkim olunduqları Avropa ölkəsi haqqında məlumat vermək imkanı əldə ediblər.

OCEP - Olimpiya Mədəniyyəti və Təhsil Programının başlıca amalı, bir tərəfdən, Avropa Olimpiya Komitələrinə üzv ölkələrin yeniyetmə və gəncləri arasında qitə xalqlarının mədəniyyətinə, idmanına, həmçinin Olimpiya Hərəkatına aid məlumatları ötürmək, Olimpiya təhsili verməksə, digər tərəfdən, idman və mədəniyyətin vəhdətindən istifadə etməklə dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamaq, bir-birini öyrənib təbliğ etmək ruhunu yaymaqdır. Bu prosesin son dərəcə fəal, səmərəli, birbaşa və distant əlaqələr zəminində reallaşması üçün OCEP proqramı şəbəkələndirməni təmin edir.

Qeyd edildiyi kimi OCEP fəaliyyətini dostluq və qardaşlaşmanı reallaşdırma ilə başlanır. Bu il fevralın 6-dan OCEP-ə fəal qoşulan 49 Bakı məktəbi və onlarla əlaqədə olan 49 Avropa ölkəsinin məktəblərinin siyahısı müəyyənləşdirilmişib. Tədbirdə püşkatma yolu ilə qardaşlaşan məktəblər təyin edilib. Püşkatmanın nəticələrinə görə, 23-saylı məktəb Ukrayna, 6 saylı məktəb Böyük Britaniya, 2 saylı məktəb Latviya, 132-134 saylı məktəb Fransa, 189-190 saylı məktəb İsveç, 111 saylı məktəb Bolqarıstan və s. məktəbi ilə qardaşlaşıb. Bir daha qeyd edək ki, həm yerli, həm də Avropa ölkələrinin məktəblərinin seçimi və əlaqələndirilməsi işinə 2018-ci ildən start verilmişdi. Bu prosesdə Milli Olimpiya Komitəsi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Yeniyetmələrin Bakı Olimpiya Festivalında iştirakçısı olacaq ölkələrin səfirlikləri və Milli Olimpiya Komitələri fəal iştirak ediblər. Beləliklə, qardaşlaşdırma və əlaqələndirmənin təsadüfi deyil, ciddi və möhkəm əsaslar üzərində bərqərar olduğunu deyə bilərik.

Olimpiya mədəniyyəti və təhsil proqramı yalnız Azərbaycanda deyil, demək olar ki, bütün Avropa ölkələrində idmanın, təhsilin, mədəniyyətin təbliğinə, bu sahədə biliklərin artırılmasına yardım göstərəcəkdir. Proqramın əsas məqsədi Avropa ölkələrində yeniyetmə və gənclər arasında əlaqələri yaratmaq və inkişaf etdirməyə xidmət edir. Məqsəd Avropa ölkələrindəki idmanın, təhsilin, mədəniyyətin, ədəbiyyatın, adət-ənənələrin bütün qitə ölkələrində təqdim və yayılmasına başlamaq və bu işi ardıcıl davam etdirməkdir. Azərbaycan məktəbləri ilə Avropanın digər ölkələrinin məktəbləri arasında əlaqələr, şübhəsiz ki, qırılmaz olacaqdır. İlkin prosesdə Bakı məktəbləri təhkim olunduqları Avropa ölkəsinin mədəniyyəti, tarixi, milli və müasir idman növlərini öyrənməklə yanaşı, həmçinin qardaşlaşmış məktəblərə Azərbaycan mədəniyyəti, incəsənəti, idmanı haqqında məlumatlar toplamaq, Azərbaycan mədəniyyəti və idmanı haqqında bilikləri yaymaq, tədris və təbliğ məqsədli müxtəlif əyləncəli proqramlar hazırlayıb nümayiş etdirməyə başlayıblar. Belə tədbirlərin nümayişindən sonra hər bir məktəb sosial şəbəkə vasitəsilə qardaşlaşdığı məktəblə məlumat və təcrübə mübadiləsini gerçəkləşdirir. Bakı məktəblərinin bu işdə fəallığı indi aşkar hiss olunur. Seçilmiş məktəblərimizin yerinə yetirdikləri tədbirlər haqqında ümumi məlumat vermək yerinə düşərdi.





Mikayıl Müşfiqin adını daşıyan 18 saylı tam orta məktəb Latviya məktəbi ilə qardaşlaşıb. Məktəbdə Latviyanın tarixini, coğrafiyasını, mədəniyyətini, idmanını öyrənmə işləri başlanıb və davam etməkdədir. Məktəb rəhbərliyinin, müəllimlərin və Milli Olimpiya Komitəsinin dəstəyi ilə məktəb ilk tədbirini nümayiş etdirib.

Tahir Həsənov adına 23 saylı məktəb OCEP 2019 proqramı çərçivəsində Ukraynanın İvano-Frankovsk vilayətində yerləşən "Yabluniv" liseyi ilə qardaşlaşıb. Burada da şagirdlər ilk tədbirlərini nümayiş etdiriblər.

"Həyatda qazandığımız uğurlara görə məktəbə, müəllimə borcluyuq" devizini rəhbər tutan 189-190 saylı orta məktəbin təşkil etdiyi əyləncəli proqram İsveç qardaşlaşmış məktəbinin şagirdlərinin böyük marağına səbəb olub. Müəllimlərin dəstəyi ilə şagirdlər indi bu istiqamətdə "Hər gün, hər saat, hər an mükəmməlliyə doğru" devizi ilə fəliyyətlərini davam etdirirlər.

Bakı-2019 Avropa Gənclər Olimpiya Festivalının tərkib hissəsi olan Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində İspaniya ilə əməkdaşlıq edən Arif Hüseynzadə adına 20 saylı məktəb-lisey OCEP 2019 layihəsi çərçivəsində "Salam, İspaniya adlı təqdimat-sərgi mərasimi keçiriblər.

42 saylı məktəbin şagirdləri texnologiya dərsi zamanı Moldova mətbəxinə aid olan pleçinte yeməyini hazırlayıblar. Yeməyin hazırlanması və təqdimatı şagirdlər üçün çox maraqlı və əyləncəli olub. Balaca aşpazlar işin öhdəsindən uğurla gəliblər.

162 saylı məktəb Litvanın Şyaulyay şəhərində yerləşən Yulius-Yanosis gimnaziyası ilə qardaşlaşıb. Məktəbdə 4R sinif şagirdlərindən ibarət "Bakı" və "Vilnüs" komandaları arasında "Şən startlar" idman yarışına hazırlıq məqsədi məşqlər keçirilir. Onların "Salam, Litva!" tədbiri də son dərəcə maraqlıdır.

189-190 saylı orta məktəbdə OCEP 2019 proqramı ilə əlaqədar açıq dərs keçirilib. Açıq dərsdə uşaqlara Olimpiya Oyunları və OCEP 2019 proqramı haqqında geniş məlumat verilib. Dərs ərzində bir neçə qrupa ayrılmış şagirdlər Olimpiya Oyunlarının əsas rəmzi olan Olimpiya halqaları və məşəlini hazırlayıblar.

132-134 saylı təhsil kompleksinin şagirdləri fransız dili biliklərini nümayiş etdirib, "Bonjour, la France!" tədbirini keçiriblər.

Olimpiya Mədəniyyəti və Təhsil Proqramı çərçivəsində 220 saylı məktəb-liseyin 7-ci sinif şagirdləri ingilis dili dərsində Andorra dövləti və onun simvolları, coğrafiyası, təbiəti, heyvanat aləmi haqqında araşdırma apardılar və maraqlı təqdimat hazırladılar. Şagirdlərin Olimpiya Oyunlarının tarixini və simvollarını nə dərəcədə bildiyini göstərmək üçün Kahoot online qiymətləndirmə vasitəsindən istifafə edilib. Hər bir şagird planşet vasitəsilə "Kahoot.it" saytına daxil olub "Olympic Games: School-Lyceum H 220" sorğusuna qoşulub.

111 saylı məktəbin müəllimləri Olimpiya Mədəniyyəti və Təhsil Proqramının iştirakçıları qismində Bakı Slavyan Universitetinin Bolqar Dili və Mədəniyyəti Mərkəzinə gediblər. Burada onlar Bolqarıstanın adət-ənənələri ilə daha yaxından tanış olublar və əldə etdikləri yeni məlumatları da açıq dərslər vasitəsi ilə məktəblilərə çatdırmaqdadırlar.

Milli Olimpiya Komitəsi və OCEP-in ekspertləri "Ayın məktəbi" müsabiqəsinin matt ayı üçün nəticələrini təqdim edib. Göstərilən fəallıq, yüksək səviyyədə təşkil olunan tədbirlər və uğurlu əməkdaşlıq nəticəsində bir deyil, üç təhsil müəssisəsi eyni anda bu ada layiq görüldü. Həmin təhsil müəssisələri aşağıdakılardır: 1) 20 saylı məktəb-lisey; 2) 220 saylı məktəb-lisey; 3) Bakı Avropa Liseyi.

Təbii ki, bütün məktəblərdə təkcə fevral və mart aylarında keçirilən tədbirləri sadalamaq özü böyük bir siyahı tələb edir. Düşünürük ki, növbəti yazılarda OCEP çərçivəsində Olimpiya mədəniyyəti və təhsilini qitənin ayrı-ayrı ölkələri üzrə təqdim etmək və təhsil məqsədli məlumatları artırmaq proqram iştirakçıları üçün daha çox əhəmiyyətli olacaqdır.

***Cəmaləddin Rəhmanov,***
***MOK-un informasiya və nəşriyyat idarəsinin müdiri***

# 36 ölkənin təmsilçisi Bakıya gələcək



Bakıda keçiriləcək paracüdo üzrə beynəlxalq Qran-Pri yarışlarının Təşkilat Komitəsinin iclası keçirilib.

İclasda bir sıra məsələlərə aydınlıq gətirilib. AMPK-nın prezidenti və turnirin Təşkilat Komitəsinin sədri İlqar Rəhimov bildirib ki, artıq yarışda iştirak edəcək ölkələrin və idmançıların dəqiq sayı müəyyənləşib. Belə ki, yarışda 36 ölkədən 280 idmançı iştirak edəcək. Yarışla bağlı paytaxta gələcək nümayəndələrin sayı idmançılarla birlikdə 375 nəfər təşkil edəcək.

İ.Rəhimov yarışlarda iştirak edəcək Azərbaycan millisinin də heyətini açıqlayıb. Onun sözlərinə görə, kişilərin yarışında Azərbaycanı 7 çəki dərəcəsində 13 idmançı təmsil edəcək. Qadınların yarışında isə 6 çəki dərəcəsində 10 idmançımız medallar uğrunda yarışacaq.

"Bakı Qran-Prisinə Rusiya, ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İran, İtaliya, İspaniya, Kanada və Çin kimi böyük ölkələrdən idmançılar gələcəklər. Azərbaycan, ABŞ, Rusiya, İran, Türkiyə, Ukrayna, Braziliya, Əlcəzair, Yaponiya və Özbəkistan Bakı Qran-Prisinə böyük heyətlə qatılacaqlar", - deyə İ.Rəhimov əlavə edib.

AMPK-nın prezidenti yarışın tərəfdaşları barədə də söz açıb. O, qeyd edib ki, Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyası (IBSA), Beynəlxalq Cüdo Federasiyası (IJF), Milli Olimpiya Komitəsi (MOK), Azərbaycan Cüdo Federasiyası (AJF), Gənclər və İdman Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Qran-Prisinə təşkilati dəstək göstərən qurumlardır. SOCAR və BP yarışın əsas, "Toyota" şirkəti isə rəsmi tərəfdaşıdır.

İ.Rəhimov paracüdo yarışlarında idmançıların sağlamlığının vacib məsələ olduğunu qeyd edib: "ABŞ, Braziliya, Nigeriya, Avstraliya, İsrail, Keniya və Almaniyadan 6 mütəxəssis (həkim) Bakıya gələcək. Beynəlxalq həkim heyəti yarışa qatılan idmançıları tibbi müayinədən keçirəcək və onların paracüdo yarışları üçün uyğun olub-olmadıqlarını müəyyən edəcəklər. Klassifikasiyalar akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində baş tutacaq".

Təşkilat Komitəsinin iclasında, həmçinin o da qeyd olunub ki, yarışların təşkil olunmasında əlilliyi olan şəxslərin yaxından iştirakı təmin olunacaq.

# *Luici Busadan sonra ikinci*



Ümumdünya Karate Federasiyası (WKF) yeni Olimpiya reytinqini açıqlayıb.

İlk 20-likdə Azərbaycanın 3 karateçisinin adı yer alıb. Milli komandamızın lideri Rafael Ağayev (75 kq) italiyalı Luici Busadan sonra ikinci yerdə qərarlaşıb. Qeyd edək ki, İspaniyada keçirilən 54-cü Avropa çempionatında R.Ağayev məhz L.Busaya məğlub olaraq gümüş medalla kifayətlənib. Dünya çempionu İrina Zaretska (61 kq-dan yuxarı) da ikinci pillədə qərarlaşıb. Bu çəkidə yunan Eleni Çatziliadou reytinq cədvəlinin lideridir.

Digər təmsilçimiz Firdovsi Fərzəliyev (67 kq) isə 12-ci pilləyə yüksəlib.

## Azərbaycan dünyada ən nüfuzlu idman ölkələrindən birinə çevrilib

***Xəbər verdiyimiz kimi, martın 30-da ölkəmizdə Avropa Universal Döyüş Federasiyasının Konqresi keçirilib. Tədbir çərçivəsində Azərbaycana müxtəlif ölkələrdən qonaqlar səfər etmişdilər. Latviya, Litva, Estoniya, Rusiya, Bolqarıstan, Türkiyə, Ukrayna, Rumıniya və digər ölkələrdən olan icraiyyə komitəsi üzvlərinin iştirakı ilə keçirilən Konqresin seçki mərhələsində Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi Natiq Əliyev yekdil səsverməyə əsasən Avropa Universal Döyüş Federasiyasının prezidenti seçilib.***

***Konqres öz işini başa vurduqdan sonra Beynəlxalq Universal Döyüş Federasiyasının prezidenti ukraynalı Vasiliy Otkidaç və Avropa Universal Döyüş Federasiyasının vitse-prezidenti bolqarıstanlı İvan Tanev "Olimpiya dünyası" qəzeti ilə eksklüziv olaraq fikirlərini bölüşüblər:***

### Vasiliy Otkidaç: "İdmanın inkişafı ona göstərilən münasibətdən asılıdır"



- Bu mənim Azərbaycana ilk səfərimdir və bu səfər uğurla yekunlaşdı. Bakıda Avropa Universal Döyüş Federasiyasının Konqresi yüksək səviyyədə təşkil olunmuşdu. Azərbaycanlı nümayəndə Natiq Əliyev Avropa Universal Döyüş Federasiyasının prezidenti seçildi. Bu münasibətlə, Natiq Əliyevi və bütün Azərbaycan xalqını təbrik edirəm. Burada Avropa və Azərbaycan Universal Döyüş Federasiyası tərəfindən bizə doğma münasibət göstərildi. Demək olar, özümüzü qonaq yox, evimizdəki kimi hiss edirdik. Konqresdə həmçinin qonaq qismində Azərbaycanın tanınmış idmançıları, mən deyərdim, dünya idmanının "ulduzları" iştirak edirdi. Onları bir arada görmək məni çox sevindirdi. Burada, həmçinin universal döyüşün yeni versiyasının təsdiq olunması ilə bağlı qərar qəbul olundu. Bu növ daha effektli olacaq və daha çox gənci özünə cəlb edəcək. Bundan başqa, Avropa çempionatının iyunun 10-dan 16-dək Ukraynanın Koblevo şəhərində keçirilməsi öz təsdiqini tapdı. Bu yarışda bütün yaş qrupu, üzrə idmançılar iştirak edəcəklər. Bu, komandalar üçün də əlverişlidir. Bu il ərzində həm də dünya çempionatı, Dünya və Avropa kuboku və beynəlxalq turnirlər də keçiriləcək. Qeyd edim ki, universal döyüşün inkişafında əsas məqsəd gəncləri hərtərəfli inkişaf etdirməkdir. Bu növ bir neçə döyüş elementlərini özündə birləşdirdiyi üçün gənclərin diqqətini daha çox cəlb edir. Burada həm güləş, həm döyüş elementləri var. Məqsədimiz beynəlxalq federasiyanı daha da gücləndirməkdir. Əlbəttə ki, bu, idmanın inkişafı ona göstərilən münasibətdən asılıdır. Gələcəkdə əsas məqsədimiz Olimpiya oyunlarının proqramına daxil olmaqdır. Olimpiya idman növünün əsas tələblərindən biri məhz baxımlılıqdır. Uğurlu layihələrin həyata keçirilməsində bizə ölkələrdə fəaliyyət göstərən federasiyalar kömək edirlər. Azərbaycan bütün dünyada idman ölkəsi kimi özünü təsdiqləyib. Bu baxımdan, Avropa federasiyasının qərargahının Azərbaycanda olması təsadüfi deyil. İnanıram ki Azərbaycanla əməkdaşlığımız uğurla davam edəcək.

### İvan Tanev: "Əsas məqsədimiz gənclərin gələcəyinə töhfə verməkdir"

- İlk növbədə, bir mətbuat nümayəndəsi kimi bizə vaxt ayırdığınız üçün sizə minnətdarlığımı bildirirəm. Bolqarıstanda universal döyüş 8 ildən artıqdır ki, inkişaf etdirilir. Beynəlxalq Federasiyanın yeni qaydaları ilə tanış oldum. Uzun illər hakimlik edən bir şəxs kimi qaydalardakı dəqiqlik məni sevindirdi. Yeni qaydalar təşkilatçılıq işlərinin asanlaşmasına da şərait yaradır. Əsas məqsədimiz gənclərin gələcəyinə töhfə verməkdir. Azərbaycanda keçirilən konqresdə bir sıra Avropa ölkələri iştirak edirdi. Bizim qarşımızda dayanan əsas məqsəd həm Bolqarıstanda, həm də yaxın qonşu ölkələrdə bu növü təbliğ və inkişaf etdirməkdir. İnanıram ki, Natiq Əliyevin rəhbərliyi altında Avropa Federasiyası uğurlu layihələr həyata keçirəcək. Bakıya ilk səfərimdir və düzünü desəm, burada daha da çox qalmaq istərdim. Bu gün paytaxtınızda İçəri şəhərdə olduq və tarixi abidələrə baxdıq. İnsanların qonaqpərvərliyi məni daha çox sevindirən məqamlardan biri oldu.



Yubiley



## Rafiq Rəhimov - 85

***Rafiq Hüseyn oğlu Rəhimov 1934-cü ildə Bakıda qulluqçu ailəsində anadan olub. 1951-ci ildə paytaxtda yerləşən 152 saylı orta məktəbi bitirib. İdmanla 1948-ci ildən, "Dinamo" Könüllü İdman Cəmiyyətində Maxaradzenin rəhbərliyi altında məşğul olmağa başlayıb. Rafiq Rəhimov bir vaxtlar ölkənin yunan-Roma idman növü üzrə yığma komandasının baş məşqçisi vəzifəsində çalışıb.***

O, 1948-1952-ci illərdə Bakı şəhəri və "Dinamo" cəmiyyəti üzrə 18 yaşlılar arasında çempion adını, respublika səviyyəsində keçirilən müxtəlif yarışlarda mükafatalayiq yerlər qazanıb. Rafiq müəllimin əsgəri xidmət dövründə Mərkəzi Ordu İdman Klubunda (MOİK) yeni dönəm başlayıb. O, əvvəlcə, Azərbaycan birinciliyində 2-ci və 3-cü pilləyə çıxıb, daha sonra çempion adına yiyələnib. Bununla yanaşı, idmançımız MOİK yığmasının heyətində Zaqafqaziya hərbi dairəsi üzrə Tiflisdə keçirilmiş yarışda ən yüngül çəkidə 3-ü yer tutub.1955-ci ildə çempion titulunu qazandıqdan sonra respublika millisinə dəvət alıb. Özünün dediyinə görə, Helsinki-1952 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyov, dünya və Avropa çempionu Aydın İbrahimov, SSRİ çempionları Musa Babayev, İbrahimpaşa və Muxtar Dadaşovlar, Rəhim İsmayılov kimi adlı-sanlı güləşçilərlə birgə hazırlaşıb. 1957-ci ildə hərbi xidmət müddətini başa vurduqdan sonra doğma "Dinamo"ya qayıdıb. Onun ilk böyük uğuru 1958-ci ildə Tatarıstanın paytaxtı Kazanda olub. SSRİ Ordu İdman Klubları arasında keçirilən yarışda (öz əhəmiyyətinə görə ittifaq çempionatından geri qalmırdı) bürünc medal qazanması istedadlı bahadırın yolunu açıb və o, artıq Sovet yığmasın tərkibində müxtəlif daxili və beynəlxalq yarışlarda iştirak edib.

Həmin il Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisadiyyat Universiteti)1-ci kursuna qəbul olunan Rafiq Rəhimov "Bədən tərbiyyəsi kafedrası"na yunan-Roma güləşi üzrə müəllim-məşqçi təyin edilib. Tələbəlik illərində təhsil almaqla yanaşı, "klassik" güləşlə maraqlananlarla məşqlər keçirərək, respublika miqyasında müxtəlif yarışlara hazırlaşıb.

Rafiq müəllim 1963-cü ildə institutu bitirdikdən sonra Eduard Kasparovun baş məşqçi olduğu "Ehtiyat Əmək Qüvvələri"nə dəvət alıb. Cəmiyyətdə çalışdığı dövrdə bir çox güləşçinin, o cümlədən, ən yüngül çəkidə SSRİ çempionu olan K.Ağayevin hazırlıq mərhələsində yaxından iştirak edib.

O,1960-cı ildən respublika dərəcəli hakim adını aldıqdan sonra müxtəlif şəhərlərdə təşkil olunan (Bakı, Şəki, Naxçıvan, Ağdam, Göycay, Şuşa, Laçın və s.) yunan-Roma və sərbəst güləş üzrə respublika birinciliklərinin baş hakimi və ya baş katibi olub. Yarışları yaxşı səviyyəsində keçirdiyinə görə müxtəlif mükafatlara layiq görülüb.

1958-1965-ci illərdə idman jurnalistikası ilə də məşğul olan mütəxəssisin müxtəlif yarışlarla bağlı məqalələri respublikanın müxtəlif mətbu orqanlarının səhifələrində dərc olunub.

Rafiq müəllim 1965-1995-ci illər ərzində Dövlət Plan Komitəsi və nazirlər soveti sistemində, eləcə də, ticarət və müdafiə nazirliklərində məsul vəzifələrdə çalışıb. Təqaüdə çıxandan sonra yarışlarda əldə etdiyi təcrübəni gənc nəslə öyrədib. Hazırda "Günəş" idman cəmiyyəti ilə bu sahədə sıx əməkdaşlıq edir.

Rafiq Rəhimov 2014-cü ildə idman sahəsində göstərdiyi xidmətlərə görə Gənclər və İdman Nazirliyi tərəfindən "Fəxri bədən tərbiyəsi və idman işçisi" adına layiq görülüb. Növbəti dəfə nazirlik tərəfindən 2018-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilin idman yekunlarına həsr olunmuş tədbirdə təltif edilib. 85 illik yubileyini qeyd edən Rafiq Rəhimovun 3 övladı, nəvələri vardır. Nəvələrindən güləş idman növünə maraq göstərənlər az deyil. İnanırıq ki, nəvələri onun zəngin irsini davam etdirəcək və yeni çempionlar yetişəcək.

## "Az avtomobil, çox həyat" devizi altında veloyürüş keçirilib

7 aprel - Ümumdünya Sağlamlıq Günü ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşəbbüsü, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Dünya Səhiyyə Təşkilatının təşkilatçılığı, Azərbaycan Velosiped İdmanı Federasiyası, Dövlət Təhlükəsizliyi Xidməti Velosiped Klubunun və Respublika Olimpiya Velosiped Məktəbinin dəstəyi ilə Veloparkda "Az avtomobil, çox həyat" devizi altında veloyürüş keçirilib.

Tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov da iştirak edib.

Tədbir iştirakçılarını salamlayan ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev ətraf mühitin sağlamlaşdırılması, insanlara sağlam həyat tərzinin aşılanması məqsədilə



təşkil olunan aksiyanın bütün iştirakçılarına ETSN-nin adından minnətdarlığını bildirib. Sonra yürüşə start verilib.

Veloyürüşdə, həmçinin Dövlət Gömrük Komitəsi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Bakı Nəqliyyat Agentliyi, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin nümayəndələri, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri də iştirak edib. Yürüş iştirakçılarının mükafatlandırma mərasimində çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri xanım Hande Harmancı bu cür tədbirlərin həm insan sağlamlığına, həm də ekologiyanın qorunmasına müsbət təsir göstərdiyini deyib və veloyürüşün əhəmiyyətini yüksək qiymətləndirib.

AzVİF-in 1-ci vitse-prezidenti, Avropa Velosipedçilər Birliyi Rəhbər Komitəsinin üzvü Sahib Ələkbərov isə iştirakçılara təşəkkürünü bildirərək son illər ərzində velosipedin həm idman növü, həm də nəqliyyat vasitəsi kimi inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi dəstəyinin hər zaman hiss edildiyini deyib. S. Ələkbərov paytaxt sakinlərini vaxtlarının səmərəli keçirmək, ailəvi şəkildə dincəlmək və velosiped sürmək üçün hər cür şəraiti olan Veloparkın imkanlarından maksimum istifadə etməyə çağırıb.

Tədbirin sonunda yürüşün fəal iştirakçılarına xüsusi diplomlar təqdim olunub.



## *Maqnus Karlsen "Shamkir Chess"in qalibidir*

Aprelin 8-də Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2019" superturnirinin səkkizinci turunda qalib müəyyənləşib.

Norveçli dünya çempionu Maqnus Karlsen turnirin başa çatmasına bir tur qalmış "Shamkir Chess" superturnirində dördüncü çempionluğunu qeyd edib. O, səkkizinci turda rusiyalı Sergey Karyakini məğlub edərək xallarının sayını 6-ya çatdırıb. Onun ən yaxşı izləyicisi S.Karyakinin aktivində 4,5 xal var.

Səkkizinci turun digər oyunlarında Azərbaycan təmsilçisi Teymur Rəcəbov keçmiş dünya çempionu, hindistanlı Vişvanatan Anand ilə heç-heçə edib. Şəhriyar Məmmədyar isə hollandiyalı Aniş Qiri ilə xalları yarı bölüb.

Turnirə aprelin 9-da yekun vurulacaq.

Xatırladaq ki, 2014-cü, 2015-ci və 2018-ci illərdə yarışın qalibi Maqnus Karlsen olub. 2016-cı və 2017-ci illərdə isə Şəhriyar Məmmədyarov birinci yeri tutub.

* * *

Şəmkirdə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının beş məktəbli üzvü ilə şahmat üzrə dünya çempionu Maqnus Karlsen arasında şahmat sülh naminə oyunu keçirilib.

Yarışdan əvvəl məktəblilər ümummilli lider Heydər Əliyevin Şəmkirdəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Sonra Heydər Əliyev Mərkəzində yarışa start verilib. Yarışdan sonra uşaqlar Karlsenə arzularını çatdırıb, onunla şəkil çəkdiriblər.

* * *

Aprelin 15-də "Elfim" şahmat mərkəzinin təşkilatçılığı ilə "İddialılar kuboku - 2019" turniri start götürəcək.

Yarışda 8, 10, 12, 14 və 16 yaşadək oğlanlar və qızlar arasında Azərbaycan birinciliyinə vəsiqə qazanmış idmançılar, həmçinin 2019-cu ildə Avropa və dünya birinciliklərinin mükafatçıları mübarizə aparacaqlar.

Turnir aprelin 21-dək davam edəcək.

* * *

Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2019" superturnirinin istirahət günündə ənənəvi futbol yarışı keçirilib. Turnirdə dörd komanda - Arkadi Dvorkoviçin kapitanı olduğu FİDE, Faiq Həsənovun rəhbərlik etdiyi Azərbaycan Şahmat Federasiyası, eyni zamanda, "Şahmatçılar" və "Təşkilatçılar" komandaları iştirak edib.



Dairəvi sistem üzrə keçirilən yarışın qalibi "Təşkilatçılar" komandası olub. İkinci yeri Maqnus Karlsenin çıxış etdiyi "Şahmatçılar" komandası tutub.

"Shamkir Chess 2019" turnirində ənənəvi olaraq istirahət günlərində futbol yarışı keçirilir.

*“Fitnes” sözü günümüzdə ən çox işlənən idman terminlərindən sayılır. Demək olar ki, bütün dünyada fitneslə məşğul olan insanların sayı xeyli artıb. Daha çox fitneslə zərif cinsin nümayəndələri məşğul olurlar. Xanımlar bu idman növünə həm sağlamlıq, həm də ideal bədən quruluşuna sahib olmaq üçün müraciət edirlər. Qədim yunan dilindən tərcümədə “bədənin qayğısına qalmaq” mənasını verən fitnes hələ qədim dövrlərdən qadınların diqqət mərkəzində olub.*

# Sağlam bədən sağlam fikirlərin daşıyıcısıdır

## *3 əsr əvvələ qiyabi səyahət*









Fitnes daha çox Avropada vüsət almağa başlayıb. Həmin inqilab XVIII əsrin 20-30-cu illərinə təsadüf edib. Bu işdə böyük yüksəliş qadınların fitnesə ola marağından irəli gəlib. Fitnesi təbii ki, idman alətləri olmadan təsəvvür etmək olmaz. Bu alətlərin hazırlanması üçün dövrün bir sıra ixtiraçıları qüvvələrini səfərbər ediblər. Lakin ən böyük nailiyyət isveçli fizioterapevt Qustav Zanderin adı ilə bağlıdır. Ona qədər Frensis Launds, Fridrix Lüdviq Yan, Henrix Linq, Nikol Endri kimi tanınmış həkim və mexaniklər öz işlərini tanıda bilməmişdilər. Qustavın hazırladığı idman alətləri tezliklə bütün Avropanı fəth etdi. Maraqlıdır ki, həmin vaxt bu alətlərdən istifadə etmək insanlar üçün, xüsusilə də xanımlar üçün qeyri-adi və təhlükəli görünürdü. Bu səbəbdən Qustav Zander alətlərin funksiyasını başa salmaq üçün xüsusi kurslar təşkil etmişdi. Həmin kurslarda yalnız kişilər iştirak edirdilər. Fizioterapevt kurslara cəlb etdiyi kişilərə başa salırdı ki, istənilən vəziyyətdə bu alətlərlə ehtiyatlı davranmaq lazımdır. Əksər halda böyük fəsadlar yarana bilər. Nəticədə xanımların bu alətlərə marağı azalar, onlar məşqlərdən qorxa bilər. Qustav, bəlkə də, onun bu ixtirasının uğursuzluqla nəticələndiyindən, çəkdiyi zəhmətin və xərclərin hədərə getdiyindən ehtiyat edirdi. Amma onun kurslara cəlb etdiyi kişilər Qustavın etimadını doğrultdular. Avropanın əksər ölkələrində - Almaniya, İngiltərə, Fransa, İsveçdə xanımlar fitnes kurslarına müraciət etməyə başladılar. Bir məqama diqqət yetirmək lazımdır ki, həmin məşqlərə görə xanımlardan çox böyük məbləğlər tələb olunurdu. Bu isə hər təbəqənin imkanı daxilində deyildi. Bir sözlə fitnes kübar və imkanlı ailənin əsilzadə xanımlarının sevimli məşğuliyyətinə çevrildi. Əslində bu, belə də olmalı idi. Kasıb təbəqənin xanımlarının trenajorlarda vaxt və pul itirməsi gülünc görünürdü. Nazlı, özündənrazı və pul xərcləmək istəməyən avropalı xanımlar asudə olan vaxtlarını fitnes zallarında keçirirdilər. Onlar o qədər özlərindən razı idilər ki, məşqlərə ən bahalı libaslarda, zinət əşyalarında, o dövrün son dəblərinə uyğun saç düzümündə gəlirdilər. Hətta ayaqlarına hündür dabanlı, bahalı ayaqqabılar geyinirdilər. Tarixçilər onu da qeyd edirdilər ki, xanımların bəziləri qalın geyimləri tərləmək, artıq çəkidən qurtulmaq üçün geyinirdilər. Ümumilikdə Qustav bu vəziyyətdən xeyli razı idi. Onun var-dövləti və nüfuzu xeyli artmışdı. İsveçli həkim öz adını tarixə qızıl hərflərlə yazdırdı.

### Fitnes dünyada elitar bir məşğuliyyətə çevrildi

Bir qədər məşqlərə nəzər salaq. Kübar xanımlar çox nazlı görünürdülər. Hətta onlar məşqlərə kömək edən köməkçilərə etiraz edib, onları təhqir də edirdilər. Klassik trenajorların sorağı tezliklə digər qitələrə də gedib, çatdı. Bunu dövrün mətbuat nəşrlərində yazılan məqalələrdən, xəbər manşetlərində və küçə afişalarında görmək olardı. Tezliklə trenajor biznesi vüsət almağa başladı. Yeni tədqimatlar, yeni reklam çarxları çəkilməyə başladı. Dövrün üzdə olan məşhur xanımları reklamlarda çəkilib, insanları trenajorlara dəvət edirdi. Avropanın dükan və bazarlarında idman alətlərinə tələb artırdı. Artıq çəkidən əziyyət çəkən xanımlar artıq idman alətlərindən istifadə edərək, ideal bədən quruluşuna sahib olmağa cəhd edirdi. Qeyd etdiyimiz kimi, fitnesin sorağı okeanın o tayına da yol tapa bilmişdi. Avropada yaranan trenajorlar ABŞ-da təkmilləşdi, desək yanılmarıq. Hətta o dövrdə mövzu qıtlığından əziyyət çəkən kinematoqrafçılar fitnesi ekranlara gətirdilər. Hollivudun məşhur aktrisaları fitneslə daha böyük tamaşaçı kütləsi toplamağa başladı. Məsələn aktrisa Elen Çedvikin iştirakı ilə 1925-ci ildə reklam xarakterli 25 dəqiqəlik rolik bütün dünyada tanındı. Geniş təbliğatdan sonra fitnes dünyada elitar bir məşğuliyyətə çevrildi. Bir faktı da qeyd edək ki, 1912-ci ildə qəzaya uğrayan “Titanik” gəmisində də varlıların xanımları faciədən qabaq trenajorda öz sağlamlıqlarının qeydinə qalırdılar.

### Sağlamlıq hər birimizin haqqıdır

Zaman keçdikcə maddi vəziyyətindən və cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hamı fitnes məşqlərinə maraq göstərirdi. İnsanlar yaxşı başa düşürdülər ki, passiv həyat tərzi insanı xəstəliklərə aparıb çıxarır. Onu da bilirdilər ki, sağlam olmaq üçün fiziki hərəkətlər belə insanın köməyinə çatır. Artıq çəki probleminin həllində məşqlər və idman hərəkətləri ən yaxşı vasitədir. Müasir dövrümüzdə cinsindən, tutduğu mövqedən və maddi imkanından asılı olmayaraq hər bir insanın idman zallarında məşq etmək hüququ var. Sağlamlıq hər birimizin haqqıdır. Bu haqq bizi həyatda xəstəliklərdən uzaq olmağa sövq edir. İstənilən halda idmanla məşğul olmaq vacib şərtdir. Gəlin, buna əməl edək. Çünki, sağlam bədən sağlam fikirlərin daşıyıcısıdır.

*Anar Əhmədov*

---

*Formula 1*

## Azərbaycan Qran-Prisi ərəfəsində tamaşaçılar üçün möhtəşəm şou

Aprelin 26-28-də Formula 1 Azərbaycan Qran-Prisinin keçiriləcəyi yarış həftəsonunda dünyaca məşhur DJ-lərin çıxış edəcəyi “Bakı şəhərinin sədaları” adlı gecə əyləncə proqramı elan edib.

“Azərbaycan Hava Yolları”nın QSC-nin (AZAL) və “Silk Way” Şirkətlər Qrupunun dəstəyi ilə “Elektra Events Hall”da baş tutacaq gecə əyləncə proqramında Ciqan, Mahmut Orhan, Robin Şultz və “Lost Frequencies” kimi məşhur DJ-lər iştirak edəcəklər. Bundan başqa, DJ Mendoza məkanın daimi sakini kimi yarış həftəsonu ərzində hər gecə öz çıxışları ilə dinləyicilərə unudulmaz anlar yaşadacaq.

Yarış həftəsonu ərzində Azərbaycan Qran-Prisi çərçivəsində “Baku Crystal Hall”da keçiriləcək axşam konsertlərindən dərhal sonra baş tutacaq DJ performansları üçün “Elektra Events Hall”a giriş saat 23:00-da başlayacaq. Gecə əyləncə proqramı üçün biletlərin gündəlik qiyməti 55 manat təşkil edir. Formula 1 Azərbaycan Qran-Prisinə bileti olan şəxslər də sözügedən gecə əyləncə proqramı üçün ayrılıqda bilet satın almalıdırlar.

Yarış həftəsonunun gecə əyləncə proqramına aprelin 26-da start veriləcək və ilk olaraq səhnəyə “Qızıl qramafon” və “İlin mahnısı” mükafatlarına layiq görülmüş rusiyalı məşhur pop, hip, hop ifaçısı Ciqan çıxacaq. Sonra səhnəyə Mahmut Orhan çıxacaq. “Deep house” və “Indie dance” musiqi janrları ilə yanaşı, məxsus olduğu mədəniyyətin dünyəvi elementlərini öz yaradıcılığında birləşdirən Mahmut Orhan dövrümüzün ən perspektivli DJ-lərindən biri sayılır.

Aprelin 27-də “Elektra Events Hall”un səhnəsində dünyaca məşhur DJ Robin Şultz öz məharətini göstərəcək. Əvvəlcə, öz ölkəsində məşhurlaşan alman əsilli DJ artıq beynəlxalq səviyyəli meqastara çevrilib. DJ-liklə yanaşı, prodüserliklə də məşğul olan Şultz hələ 30 yaşında Almaniyanın son 20 ildə ən uğurlu ifaçısı olduğunu sübut edib.

Yarış həftəsonunun gecə əyləncəsinin sonuncu ulduzu “Lost Frequencies” ləqəbi ilə tanınan Feliks De Lit olacaq. 2014-cü ildə bütün dünyada hitə çevrilən və satışı milyonları keçən “Are You With Me” mahnısı ilə məşhurlaşan DJ Feliks 18 ölkədə 1-ci yeri tutub.

* * *

“Ferrari” Yürüş Akademiyasının pilotu və əfsanəvi Mixael Şumaxerin oğlu Mik Şumaxer Bəhreyndəki testlərlə bağlı işindən aldığı təəssüratları bölüşüb.

Mik, həmçinin indi diqqətini bütünlüklə Formula 2 seriyasının yenidən başlanmasına cəmləşdirdiyini bəyan edib.

“Testlərin iki gününü müqayisə etmək çətindir. Biz yaxşı iş nümayiş etdirdik və bundan məmnun qala bilərik. Məqsədimizə nail olmağımız bizə əminlik verir.



Bundan sonra nə olacağını bilmirəm. Mən Bakıda Formula-2 sükanı arxasına qayıtmağımı gözləyirəm. Bu, mənim ilk dəfə çıxış edəcəyim xüsusi bir trasdır. Mən buna çox yaxşı hazırlaşmalıyam, simulyatorda bir qədər işləməliyəm. Çalışacağam ki, testlər zamanı aldığım təcrübədən istifadə edim”, - deyə “DT News” Mik Şumaxerdən sitat gətirir.

Xatırladaq ki, Mik Şumaxer Bəhreyndə iki gün ərzində testlərdə iştirak edib. O, testlərin birinci günü “Ferrari”nin, ikinci günü isə “Alfa Romeo”nun sükanı arxasında olub.

## *Ümumdünya Stolüstü Tennis Günü qeyd edilib*

Dənizkənarı Milli Parkda, Ağ Şəhər Bulvarında 6 aprel - Ümumdünya Stolüstü Tennis Günü qeyd edilib. Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə “Stolüstü tennis hər kəs üçün” şüarı altında keçirilən tədbirdə yığma komandanın üzvləri ictimai istifadə üçün yerləşdirilmiş tennis masalarında izləyicilərlə maraqlı oyunlar nümayiş etdiriblər. Tədbir çərçivəsində könüllülər də stolüstü tennis oynayıblar.

İdmançılar bulvardan sonra federasiyanın idman zalında Ümumdünya Stolüstü Tennis Günü ilə bağlı tədbiri davam etdiriblər.

Beynəlxalq Stolüstü Tennis Federasiyasının təşəbbüsü ilə hər il Ümumdünya Stolüstü Tennis Günü geniş qeyd olunur. Əsası 1926-cı ildə qoyulmuş Beynəlxalq Stolüstü Tennis Federasiyası sıralarında 226 stolüstü tennis assosiasiyasını birləşdirir.

* * *

2004-cü il təvəllüdlü və azyaşlı tennisçilər arasında keçirilən Azərbaycan birinciliyi başa çatıb. Turnirdə qızların qoşa yarışlarında Ləman Abdülhəmidova-Fidan İranpur cütlüyü birinci yeri tutub. Zemfira Mikayılova-Xədicə Əbilzadə cütlüyü ikinci, Arzu Aslanova-Mərziyyə Nürmətova cütlüyü isə üçüncü yerə layiq görülüb. Oğlanların qoşa yarışlarında isə ilk üçlükdə Kənan Pənahov-Xaliq Becanov, Emin Məmmədov-Rüstəm Hacılı, Hüseyn Eylazov-Toğrul Məhəmmədov qərarlaşıblar. Qarışıq qoşa yarışlarında Kənan Pənahov-Ləman Abdülhəmidova, Emin Məmmədov-Səbinə Məmmədova, Hüseyn Eylazov-Fatimə Cəfərova fəxri kürsüdə yer alıblar.

Qızların şəxsi yarışlarında Mərziyyə Nürmətova, Ləman Abdülhəmidova və Arzu Aslanova ilk üç yerə sahib olub.

Oğlanların şəxsi mübarizəsində isə Emin Məmmədov, Kənan Pənahov, Adil Əhmədzadə fərqləniblər.

Komanda yarışlarında isə oğlanlar arasında “Bakı-1” komandası fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. “Bakı-2”, “Sumqayıt-1” komandaları isə ikinci və üçüncü yerləri bölüşüblər. Qızların mübarizəsində “Şəki” komandası birinci yerə layiq görülüb. “Sumqayıt-1” və “Sumqayıt-2” komandaları sonrakı iki pillədə yer alıblar.

Ölkə birinciliyinin bağlanış mərasimində Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Fazil Məmmədov qalib və mükafatçıları təbrik edib.

Fəxri kürsüdə yer alan idmançılara Azərbaycan Gənclər və İdman Nazirliyinin diplomları, federasiyanın medal, kubok və mükafatları təqdim olunub.

Qarabağ idmanı

# Şuşanın "Qala" komandasının məşqçisi

*Neçənci dəfədir ki, onun məşqlərinə baxmağa gedirdik. Əsl idmançılara məxsus əzələli bədən quruluşu, gözəl və səhvsiz hərəkətlər, müxtəlif alətlərdə yerinə yetirdiyi çətin, mürəkkəb nömrələr onu çoxlarının vurğunu etmişdi. Xüsusən, turnikdə göstərdiyi hərəkətlər, biləklərini bağlamadan ən mürəkkəb nömrələrin öhdəsindən bacarıqla gəlməsi bu gün də gözlərimizin qarşısındadır. Əbülqasımın məharətlə icra etdiyi hərəkətləri sonralar ölkə və dünya birinciliyi yarışlarındakı idmançılarda yenidən gördük. Hətta, şuşalı idmançının belə yarışlarda nə üçün iştirak etmədiyi haqda da düşündük və yəqin ki, onun özü də bunlar barədə götür-qoy etmişdi. Ancaq hər şeyin insanın özündən asılı olmadığı vaxtlarda istəklərə çatmaq, elə idmandakı nailiyyətlər qədər çətin idi...*

O, 1951-ci ildə Şuşada doğulub. Orta təhsilini 4 nömrəli orta məktəbdə alıb. Məktəb idman şurasının üzvü kimi Tariyel Kazımovun rəhbərliyi altında idman tədbirlərində, komandaların yarışlara hazırlanmasında bacarığını əsirgəmirdi. Özü isə hər bir idman yarışında iştirak edirdi. Gimnastika məşğələlərinə hədsiz marağı onu 1 saylı orta məktəbdəki məşqlərə cəlb etdi. Tanınmış gimnast Əliqulu İbrahimovun məşqçiliyi ilə o, bu idman növünün sirlərinə yiyələndi. Rayon tədbirlərində, "Məhsul" İdman Cəmiyyətinin xətti üzrə həm idman komitəsinin, həm də komsomol komitəsinin keçirdiyi yarışların hamısında iştirak etdi. Artıq onu Dağlıq Qarabağda tanıyırdılar.

1968-ci ildə Bakıda məktəblilər arasında keçirilən respublika spartakiadasında II yerə çıxdı. Həmin vaxtda ona I dərəcəli gimnast hüququ verildi. Azərbaycan SSR Daxili İşlər Nazirliyi nəzdindəki "Dinamo" cəmiyyətinin birinciliyində (Yanvar 1969-cu il) Əbülqasım I yerə çıxdı. Sonralar dəfələrlə Dağlıq Qarabağda vilayət birinciliyinin qalibi oldu.



1969-cu ildə Əbülqasım Novruzov orta məktəbi müvəffəqiyyətlə bitirdi. 1971-ci il hərbi xidmətdən qayıtdıqdan sonra sənədlərini M. Əzizbəyov adına Şuşa Pedaqoji Məktəbinə verdi. İmtahanları uğurla verib, bədən tərbiyəsi və idman şöbəsinə daxil oldu. Tələbə adını qazandıqdan sonra da idman məşqlərini davam etdirdi. Respublika, vilayət birinciliklərində, kubok yarışlarında voleybolçu kimi iştirak etdi. Əbülqasım sonralar Dağlıq Qarabağ Muxtar Vilayətinin voleybol üzrə yığma komandasının da üzvü oldu.

Texnikumda təhsilini başa vurduqdan sonra, təyinatla Martuni (Xocavənd) rayonunun Əmirallar kənd orta məktəbinə göndərildi.

Əbülqasım 1974-cü ildə S. M. Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitunun idman gimnastikası fakültəsinə daxil oldu. Əyani şöbədə oxuduğundan təyinat yerindəki işindən ayrılmağa məcbur idi. Lakin altı aydan sonra hər şey öz yoluna qoyuldu. Fakültənin dekanı qiyabi şöbədə iki yerin boş olduğunu elan etdi və bununla da Əbülqasımın işləri qaydasına düşdü. Axı Əmirallar kəndindəki uşaqlar onun yolunu gözləyirdilər. Qiyabi şöbəyə keçdikdən sonra o, sevimli şagirdlərinin yanına qayıtdı. Kənd məktəbində idman şəraiti yaxşı olmasa da öz təşəbbüsü ilə sadə qurğularla "başını girləyən" məktəbi sanki hərəkətə gətirdi. Onun gəlişindən sonra təhsildə, xüsusən də idmanda bir canlanma, irəliləyiş hiss olundu. Rayon miqyasında voleybol yarışları keçiriləndə Əbülqasım müəllim baş hakim təyin edildi. Obyektivliyi, gərgin oyunlardakı düzgün mövqeyi onu yarışlar ərəfəsində tamaşaçılara daha da sevdirdi. Hətta, oyunları izləyən hakimin obyektivliyinə valeh olan ikinci katib Əbülqasım müəllimin əlini sıxaraq ona bir otaqlı mənzil verəcəyini bildirdi və burda qalıb işləməsini təklif etdi. Əbülqasım müəllim isə razı olmadı. O, doğma Şuşada işləməyi ən gözəl təklifdən üstün tutdu.



1975-1976-cı tədris ilində o, Xankəndindəki 4 saylı orta məktəbdə dərs dedi. 3il bu məktəbdə işləyən Əbülqasım müəllim həm də şəhərdəki 8 saylı rus məktəbində də idman dərslərini tədris etdi.

1978-ci ilin oktyabrından Şuşa şəhər 3 saylı orta internat məktəbinin direktoru, tarix elmləri namizədi Yunis Hüseynovun köməkliyi ilə Əbülqasım müəllim internatda bədən tərbiyəsi rəhbərliyinə təyin olundu və idman dərslərini tədris etməyə başladı. Təşəbbüskarlığı, idmana və şagirdlərinə hədsiz bağlılığı burda da özünü göstərdi. Əbülqasım müəllim həm internat məktəbində, həm də Şuşanın digər məktəblərində ictimai əsaslarla futbol qrupları yaratdı. (O, ali beşillik təhsilin son üç ilini futbol üzrə oxumuşdu. Məşqçiləri isə "Neftçi"nin keçmiş oyunçuları, SSRİ yığma komandasının üzvüləri Kazbek Tuayev və Valeri Hacıyev olmuşdu). 10-11, 12-13, 14-15, 16-17 yaş dərəcələri arasında da dörd futbol qrupu yaratdı. İctimai əsaslarla, təmənnasız yaratdığı bu qruplarla Əbülqasım müəllim müntəzəm məşqlər edir, yetişdirmək istədiyi idmançıların hərtərəfli hazırlığına çalışırdı. Qısa bir müddətdə hazırladığı uşaqlarla yenicə başlanan vilayət birinciliyində iştirak etdi. Dağlıq Qarabağ Muxtar Vilayəti Komsomol Komitəsinin xətti ilə ilk dəfə Şuşada keçirilən 10-11 yaşlı futbolçular arasında "Dəri top" mükafatı yarışları maraqlı olduğu qədər də gərgin keçdi. Əbülqasım müəllimin komandası bütün rəqiblərinə qalib gələrək 1-ci yerə çıxdı. Sonra isə komanda Qubada keçirilən respublika final yarışlarına vəsiqə qazandı.

Onun yetişdirdiyi futbolçular 1979-1984-cü illərdə 5 il ardıcıl olaraq Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə çempion oldular.

Müxtəlif yaş dərəcələrində yarışan futbolçuların respublika mərhələsindəki yarışlarda ən uğurlu nəticəsi Qax rayonunda qazanıldı. Şuşalı futbolçular həmin yarışlarda mükafatalayiq yerlər tutdular. Respublika məktəbliləri arasında Bərdədə keçirilən futbol yarışlarında isə 13-14 yaşlı idmançılar 2-ci yeri tutdular.

O, həmişə rast gəldiyi çətinlikləri idmançı iradəsi, qətiyyəti sayəsində yoluna qoymağı bacarıb. Bir dəfə Qubadakı toplantıda - yarışın açılış mərasimində komandasının "Stepanakert" yazılmış trafaretlə təqdim edildiyini görüb, buna qəti etirazını bildirdi. Bundan sonra həmin trafareti dəyişib DQMV etdilər. Məşqçi buna da etiraz etdi. Üçüncü dəfə o, istəyinə nail oldu. Şuşa sözü kömürlə yazılsa da, komandanın əsl adını daşıyırdı və Stepanakertdən idarə olunan bütün məqsədli münasibətlərin qarşısına çəkilən haqlı və hüquqi əsasda həqiqətlər idi ki, çətinliklə olsa da, yoluna qoya bilirdi. Ancaq yenə də məşqçi ermənilərin gizli, aşkar təzyiqlərindən qurtara bilmirdi. 1980-ci ildə məşqçi futbol komandasına "Qala" adını vermişdi. Həmin komanda üzvlərinin yay mövsümündə idman düşərgəsində istirahətlərinin təşkili diqqətdə saxlanılır, sağlamlıqları qayğısına qalınırdı. Bir dəfə Vilayət Həmkarlar Təşkilatı sədrinin idman düşərgəsinə yoxlama məqsədi ilə gəlişində girəcəkdəki "Qala" sözü diqqətindən yayınmır. Düşərgə rəisi Əbülqasım müəllimdən bu adın haradan götürüldüyünü soruşur. O da cavabında deyir ki, Şuşanın bünövrəsini qoyan Pənahəli xan onu düşmənlərdən qorumaq üçün ətrafa qala çəkdirmişdi. Bu ad Şuşanın qədimliyini ifadə edir. Cavabdan tutulan, üzü onsuz da sərt olan və daha da qaralan erməni deməyə bir söz tapmır.

Digər "gözəgörünməz" ermənilər də "Qala" komandasının tərkibində daha çox erməni uşaqlarının olmasını arzu edirdilər. ("Qala"da bircə şuşalı erməni var idi).

Çox vaxt Stepanakertin təzyiqi ilə "Qala" yarışlardan kənarda qalırdı. Əksər mötəbər yarışlarda öz komandalarını irəli çəkən ermənilərin haqsızlığı iş-işdən keçəndən sonra şuşalılara çatırdı. Sonrakı peşmanlığı isə çəkən yox idi.

Əbülqasım Novruzov 1983-cü ildən Şuşa Rayon Təhsil Şöbəsi nəzdində fəaliyyət göstərən Uşaq Gənclər İdman Məktəbinin (UGİM) direktoru vəzifəsində çalışır. 45 illik pedaqoji stajının 35 ilini UGİM-də keçirən Əbülqasım müəllimin yetirmələri kifayət qədərdir. Neçəneçə idman ustaları, onlarla birinci dərəcəli idmançı, yüzlərlə dərəcəli idmançılar hazırlayıb. Bunların içərisində dünya çempionları, Avropa mükafatçıları da var.

Şuşa futbolu tarixində Əbülqasım Novruzov 2009-cu ildə futbol üzrə Azərbaycanın 1-ci divizyonunda (idman məktəbindən ayrılmamaq şərti ilə) "Şuşa" futbol komandası yaratmış və 1-il onun baş məşqçisi işləmişdir. İndi onlar idman məktəbinin mütəxəssisləri məşqlər üçün münasib yerdən - Bakının Ramana-450 qəsəbəsində yerləşən Malıbəyli kənd orta məktəbinin idman meydançasından və zalından istifadə edirlər. Burda tez-tez müxtəlif idman növləri üzrə yarışlar keçirilir. Futbolçuların əldə etdikləri qələbələrin sevincini ən çox yaşayan məşqçilər, bir də idman məktəbinin direktoru Əbülqasım Novruzov olur. Çünki Şuşadan başlanan mənalı, idmana bağlı ömür yollarında onu yaşadan da məhz sənətinə vurğunluq, yetirmələrinə inam və sevgidir.

*Vaqif Əhmədov,*
*Qəzənfər Muradov*

Bölgə idmanı

## Qəbələ rayon birinciliyinin qalibləri müəyyənləşib

Qəbələdə çağırışaqədər və çağırışyaşlı gənclər arasında "Vətənin müdafiəsinə hazıram!" devizi altında keçirilən poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyinə yekun vurulub. Qəbələ şəhər 3 saylı tam orta məktəbin idman meydançasında keçirilən yarış Əmirvan kənd tam orta məktəbin komandasının qələbəsi ilə başa çatıb. Soltannuxa və Mıxlıqovaq kənd tam orta məktəblərinin komandaları müvafiq olaraq ikinci, üçüncü pillədə qərarlaşıblar. Gənclər və İdman, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə ənənəvi olaraq hər il keçirilən bu yarışlar gənclərin ordu sıralarına hərbi xidmətə hazırlamaq, onları Vətənə məhəbbət ruhunda tərbiyə etmək məqsədi daşıyır.

Birincilikdə 27 komanda mübarizə aparıb. İştirakçılar 100 metr məsafəyə qaçma, turnikdə dartınma və qumbara atma yarışlarında qüvvələrini sınayıblar. Rayon birinciliyinin qalibi Əmirvan kənd tam orta məktəbin komandası zona yarışında Qəbələni təmsil edəcək.

Qalib komandalar mükafatlandırılıb.

* * *

Azərbaycan Gənclər və İdman Nazirliyinin (AGİN) və Kyokşin və Ciyutaido Federasiyasının (KCF) təşkilatçılığı ilə Bərdə rayonunda kyokşin karate üzrə respublika kuboku yarışları keçirilib.

Yarışda Bakı və respublikamızın digər şəhər və rayonlarından ümumilikdə 19 komandanın tərkibində 120-dən çox idmançı mübarizə aparıb. Maraqlı idman mübarizəsi şəraitində keçən yarışda "Çempion" idman klubunun yetirmələri yüksək nəticə göstərərək birinci yerə layiq görülüblər. İkinci pillədə "Xan" idman klubunun karateçiləri yer alıblar. Üçüncü yeri isə Qazax rayonunun komandası tutub.

* * *

Ağcabədi rayonunun taekvondoçuları Göygöl Olimpiya İdman Kompleksində keçirilən açıq birincilikdə uğurla çıxış ediblər.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Taekvondo Federasiyasının, Göygöl rayon gənclər və idman idarəsinin dəstəyi ilə təşkil olunan yarışda ölkəmizlə yanaşı, İrandan və Gürcüstandan ümumilikdə 35 komandanın heyətində 570 idmançı mübarizə aparıb. Yarışda 2008-2009-cu, 2010-2011-ci illər təvəllüdlü uşaqlar, 2005-2007-ci illər təvəllüdlü yeniyetmələr və 2002-2004-cü illər təvəllüdlü gənc oğlan və qız idmançılar güclərini sınayıblar.

Yarışa 33 idmançı ilə qatılan Ağcabədi seçməsi 6-sı qızıl olmaqla 20 medal qazanaraq komanda hesabında ikinci yeri tutub. Qızıl medalları komandaya 2010-cu il təvəllüdlü idmançıların yarışında iki fərqli çəki dərəcəsində (30 və 33 kq) çıxış edən Çingiz Həsənov, Novruz Əliyev (27 kq), eləcə də Vasif Səlimov (2008, 30 kq), Kənan Əliyev (2008, 27 kq), Səfər Behbudzadə (2009, 24 kq) və Novruz Əliyev (2010, 27 kq) qazandırıblar. Məhz iki çəki dərəcəsində birinci yeri tutan doqquz yaşlı Çingiz Həsənovun qələbəsi Ağcabədi idmançılarının medal sayına görə komanda hesabında ikinci yeri tutmasında mühüm rol oynayıb.

Komandanı yarışa 2-ci Dan qara kəmər ustası, məşqçi Zöhrab İsmayılov hazırlayıb.

* * *

Saatlıda yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan güllə atıcılığı üzrə zona yarışı keçirilib. 10 komandanın iştirak etdiyi yarış şəxsi və komanda xarakteri daşıyıb.



2002-ci il təvəllüdlü və daha kiçik yaşlı oğlan və qızların mübarizə apardığı yarışda 1-2-ci yerləri tutan komandalar, şəxsi hesabda isə 1-3-cü pillədə qərarlaşan idmançılar turnirin finalına vəsiqə qazanıblar.

* * *

Ağsu rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Uşaq Gənclər İdman Məktəbi müəssisəsində Aprel döyüşlərində şəhid olan qəhrəman Azərbaycan oğullarının xatirəsinə həsr edilən yeniyetmə və kadetlər arasında sərbəst güləş növü üzrə xatirə turniri keçirilib.

Turnirdə iki yaş qrupunda 36 nəfər idmançı iştirak edib. Yarış Olimpiya üsulu ilə keçirilib.

Turnirdə hər çəki dərəcəsində ilk üç yeri tutan idmançılara Gənclər və İdman İdarəsinin diplomları verilib.

## Muay-tay üzrə XI Azərbaycan çempionatı

Aprelin 6-da Şağan Olimpiya İdman Kompleksində muay-tay üzrə XI Azərbaycan çempionatının açılış mərasimi keçirilib.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Döyüş Federasiyaları Assosiasiyasının (ADFA) və Azərbaycan Muay-tay Federasiyasının (AMF) birgə təşkil etdiyi çempionatın açılış mərasimində Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Sonra Aprel döyüşləri şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

ADFA-nın və AMF-in prezidenti Azər Həsənsoy mərasimdə çıxış edərək bildirib ki, Prezident İlham Əliyev idmana diqqət və qayğısı sayəsində bu sahə ölkəmizdə sürətlə inkişaf edir. Sevindirici haldır ki, ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərində də sürətli tərəqqi müşahidə olunur, nailiyyətlər artır. Azərbaycanda inkişafda olan idman növlərindən biri də muay-taydır. Respublika çempionatının keçirilməsi ölkəmizdə idmanın bu növünün kütləviliyinin artırılmasına mühüm töhfə verəcək.



İki gün davam edən çempionatda Quba, Şəki, Gəncə, Ucar, Bərdə, Şamaxı, eləcə də, paytaxt Bakıda fəaliyyət göstərən 30 klubdan 200-ə yaxın idmançı yeniyetmələr, gənclər və böyüklər kateqoriyalarında qüvvələrini sınayıblar.

Ölkə birinciliyində fəxri kürsüdə yer alan idmançılar yığma komandaya beynəlxalq yarışlarda iştirak edəcəklər.

# Turnir cədvəlində yenidən ikihakimiyyətlik yarandı

*Topaz Premyer Liqasında XXIII turun oyunları keçirilib. Turun açılış matçında "Sumqayıt" klubu "Keşlə" komandasını qəbul edib. "Kapital Arena"da keçirilən oyun meydan sahiblərinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Sumqayıtlıların heyətində Peyman Babayi (4) və Cavid Tağıyev (85) fərqləniblər. Paytaxt təmsilçisinin yeganə qolunu isə Samir Məsimov (40) vurub.*

Turun növbəti oyunu çempionluğa iddialı olan "Neftçi" və "Zirə" komandaları arasında olub. Görüş flaqmanın 4:2 hesablı qələbəsi ilə yekunlaşıb. Roberto Bordinın yetirmələrinin heyətində Baqali Dabo (40, 88) Anton Krivatsyuk (44) və Namiq Ələsgərov (68), "Zirə" klubunun heyətində isə Mfo Kqasvani (80, 90) fərqləniblər.

Turun ikinci oyun günündə son çempion "Qarabağ" səfərdə "Qəbələ" komandasının qonağı olub. Qəbələ şəhər stadionunda keçirilən görüşdə Ağdam təmsilçisi 2:1 hesablı qələbə qazanıb.

Hesabı 3-cü dəqiqədə "Qarabağ"ın müdafiəçisi Donald Gerrye açıb. Matçın 23-cü dəqiqəsində Rauf Əliyev bərabərlik qolunu vurub. Qarşılaşmanın 79-cu dəqiqəsində Ağdam təmsilçisinin baş məşqçisi Qurban Qurbanov Dani Kintananın əvəzinə Araz Abdullayevi meydana buraxıb. Araz Abdullayev oyuna daxil olduqdan 3 dəqiqə sonra qələbə topuna imza atıb.

Topaz Premyer Liqasının XXIII turuna "Sabah" - "Səbail" qarşılaşması ilə yekun vurulub. "Əlincə Arena"da keçirilən oyun meydan sahiblərinin 3:1 hesablı qələbəsi ilə başa çatıb.

Görüşdə hesabı qonaqlar açıblar. Enrike Perilyo 2-ci dəqiqədə fərqlənib. Meydan sahibləri bu qola 30 dəqiqə sonra cavab verib. "Sabah"ın legioneri Filip İvanoviç hesabı bərabərləşdirib. 66-cı dəqiqədə Cavid İmamverdiyev, 69-cu dəqiqədə isə Vanderson Silva "Sabah"a qələbə qazandıran növbəti iki qola imza atıblar.

Bu matç həm də "Səbail"in heyətinə qatdığı tanınmış futbolçu Maykl Essyenin Azərbaycan Premyer Liqasında debütü ilə yadda qalıb. 37 yaşlı yarımmüdafiəçi 64-cü dəqiqədə Yevgeni Koçukun yerinə meydana çıxıb.



23-cü turda qeydə alınan nəticələrdən sonra "Qarabağ" və "Neftçi" komandaları 51 xalla turnir cədvəlində şərikli liderlik edirlər. Aktivində 34 xalı olan "Səbail" üçüncü, 30 xal toplayan "Qəbələ" isə 4-cü pillədə yer alıb. "Sabah" isə 26 xalla beşinci yeri tutur.

# Papa Fransisk etiraz etdi





Katolik kilsəsinin ruhani lideri Papa Fransisk "Lionel Messi Allahdır" ifadəsinin işlədilməsinin səhv olduğunu deyib.

İspaniyada yayınlanan "Salvados on La Seksta" adlı televiziya proqramında Papa Fransiskə "Messiyə Allah desək, ona şərik qoşmuş olmuruq?'' sualı verilib.

Papa Fransisk isə bu suala "Bəli, bu, şərik qoşmaqdır. İnsanlar Messiyə "Allah" deyəndə əslində onun istedadını nə qədər sevdiklərini dilə gətirməyə çalışırlar. Ancaq bu səhv bir tərif şəklidir. Messini meydanda izləmək yaxşıdır, amma o, təbii ki, Allah deyil'' cavabını verib.

## Baş məşqçi cəzalandırıldı

Özbəkistanın "Novbahor" komandasının sabiq baş məşqçisi İlhom Muminjanov danışılmış oyunlarda iştirakı səbəbindən 5 il müddətinə diskvalifikasiya edilib.

Muminjanov 50 milyon sum (təqribən 10 min manat) məbləğində cəriməyə də məruz qalıb. O, qeyri-qanuni əməllərə 2017-ci ildə əl atıb.



Yalan ifadə verərək, Etika Komitəsini aldatmağa cəhd edən "Surxan"ın texniki direktoru Şerzod Şaripov və üzrlü səbəb göstərmədən iclasa qatılmayan komandanın kapitanı İlşod Jabbarov da futbol fəaliyyətindən kənarlaşdırılıb.

Qeyd edək ki, İlhom Muminjanov bu il "Surxan"a rəhbərlik edib. Lakin araşdırmalar başlanıldıqdan sonra o, işindən kənarlaşdırılıb.

## “Sumqayıt” Futzal Məktəbi fəaliyyətə başlayıb

"Sumqayıt" Futzal Məktəbinin açılışı olub. Sumqayıt Olimpiya İdman Kompleksində keçirilən açılış mərasimində 60-a yaxın gənc futzalçı iştirak edib.

Tədbirdə Azərbaycan Futzal Federasiyasının prezidenti Zaur Axundov, "Sumqayıt" futbol klubunun prezidenti Riad Rəfiyev, Müşahidə Şurasının üzvləri Abdulla Məmmədov, Telman Salahov, Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov, futzal üzrə Azərbaycan millisinin baş məşqçisi Joze Alesio da Silva, milli komandamızın üzvləri Rizvan Fərzəliyev və Vitali Borisov iştirak ediblər.

Tədbirdə çıxış edən Riad Rəfiyev "Sumqayıt" Futbol Akademiyasının yeni mərhələyə qədəm qoyduğunu bildirib. Premyer Liqa komandaları arasında ilk futzal məktəbinin məhz "Sumqayıt" futbol klubu tərəfindən yaradıldığını vurğulayan R.Rəfiyev futzal məktəbi ilə yanaşı, uşaq futbolunun inkişafı istiqamətində də bir sıra layihənin həyata keçiriləcəyini diqqətə çatdırıb.

Əlamətdar hadisə ilə bağlı təbriklərini çatdırdan Elgün Hümbətov 70 illiyini qeyd etməyə hazırlaşan Sumqayıtın idman və idmançılar şəhəri olduğunu, əhalinin idmanın hər bir növünə maraq göstərdiyini, "Sumqayıt" futbol klubunun həyata keçirildiyi layihələri alqışladığını söyləyib.

Rəsmi hissə yekunlaşdıqdan sonra qonaqlar "Sumqayıt" Futzal Məktəbinin məşqini izləyiblər.

## "Real" səs-küylü transferlərə start verir

"Çelsi"nin yarımmüdafiəçisi Eden Hazard "Real"a keçməyə yaxındır. Artıq klublar belçikalı futbolçunun transferi ilə bağlı demək olar ki, razılıq əldə ediblər. Rəsmi açıqlamanın yaxın vaxtlarda veriləcəyi gözlənilir. 28 yaşlı oyunçunun şəhəri tanımaq və orada özünə ev tapmaq üçün Madridə getmək istədiyi bildirilir. Qeyd edək ki, "Real"ın Hazarda görə "Çelsi"yə təxminən 100 milyon avro təzminat ödəyəcəyi iddia olunur.



* * *

"Lion"un yarımmüdafiəçisi Memfis Depay karyerasını yenidən İngiltərə Premyer Liqasında davam etdirə bilər. Hollandiya millisinin üzvü "Liverpul"un diqqət mərkəzindədir. Limanlılar onu yayda "Real"a keçəcəyi gözlənilən Sadio Manenin əvəzləyicisi kimi görürlər. Ancaq 25 yaşlı futbolçunun intizamsızlığı Yurgen Kloppu düşündürür. Bu səbəbdən də klub rəhbərliyi danışıqlara başlamaq üçün baş məşqçidən cavab gözləyir. Qeyd edək ki, Depay 2015-2017 mövsümündə "Mançester Yunayted"in də formasını geyinib.






## İspaniyalı hakimlər 1/4 final mərhələsində

Çempionlar Liqasında 1/4 final mərhələsində keçirilən oyunların hakimləri müəyyənləşib. Belə ki, "Liverpul" - "Portu" qarşılaşmasını ispaniyalı Antonio Migel Mateu Lahoz idarə edəcək. "Tottenhem" - "Mançester Siti" görüşü isə hollandiyalı Byorn Kuyperə tapşırılıb.

Mərhələnin növbəti görüşlərində də hakimləri adları məlumdur.

"Ayaks" - "Yuventus" oyununu ispaniyalı Karlos del Serro Qrande idarə edəcək. "Mançester Yunayted" - "Barselona" qarşılaşması isə italiyalı Canluka Rokkiyə həvalə olunub. Qeyd edək ki, görüşlərin hamısı aprelin 9-10-da Bakı vaxtı ilə 23:00-da başlayacaq.



## Kasilyas geriləyir

La Liqanın 31-ci turunun "Atletiko" ilə oyunu (2:0) "Barselona"nın kapitanı Lionel Messi üçün əlamətdar olub. Argentinalı superulduz Kataloniya klubunun heyətində İspaniya çempionatında 335-ci qələbəsini qazanıb. O, bu göstərici ilə "Real"ın sabiq qapıçısı, hazırda "Portu"da çıxış edən İker Kasilyası geridə qoyub. Qeyd edək ki, Messi bu nəticəyə 446 matçda nail olub.

## *“Çelsi”dən sonra “İnter”*

"Çelsi"nin sabiq baş məşqçisi Antonio Konte yeni mövsümdən "İnter"də işləyə bilər. 49 yaşlı mütəxəssis Milan klubunun təklifini qəbul edib. Bundan başqa, Kontenin komandanın futbolçusu Mauro İkardinin satılmasına razılıq verdiyi iddia olunub. Onun argentinalı hücumçunun əvəzləyicisi kimi "Roma"nın futbolçusu Edin Cekonu gördüyü yazılıb.



## “Ginnesin rekordlar kitabı”nda yeni rekord

İsrailin "İroni Yehuda" klubunun qapıçısı İsaak Hayik "Ginnesin rekordlar kitabı"na düşüb. 73 yaşında meydana çıxan qolkiper peşəkar karyerasını davam etdirən ən yaşlı oyunçu kimi tarixə düşüb. Aşağı dəstədə "Makkabi Ramat Qan"la matçda (1:5) "İroni Yehuda"nın qapısını qoruyan Hayikə oyundan sonra xüsusi mükafat təqdim olunub. Qolkiper bu göstərici ilə uruqvaylı Roberto Karmonanın (53 yaş) rekordunu yeniləyib. Qeyd edək ki, İraqda doğulan Hayik 20-ci əsrin ortalarında 10 minlərlə yəhudi kimi ailəsi ilə birlikdə İsrailə köç edib.

## Futbolçu kimi gedib, prezident kimi qayıdır

"Bavariya"nın İdarə heyətinin sədri Karl-Haynts Rummenigge Münhen klubundan gedəcəyi vaxtı açıqlayıb. O, 2020-2021 mövsümünün sonunda vəzifəsini tərk etməyi planlaşdırır. Rummenigge onun yerinə Almaniya millisi və "Bavariya"nın sabiq qapıçısı Oliver Kanın gələcəyini istisna etməyib. Qeyd edək ki, Kan özü də bununla bağlı danışıqların davam etdiyini söyləyib.



## Olimpiya çempionu yenidən futbola qayıtdı

Atletika üzrə səkkizqat Olimpiya və on birqat dünya çempionu Useyn Bolt yenidən futbolçu karyerasına başlayıb. 32 yaşlı yamaykalı atlet Fransanın ikinci divizionunda mübarizə aparan "Paris" klubuna transfer olunub. "Paris" klubu Boltla ikiillik müqavilə imzalayıb. Yamaykalı idmançı yeni mövsümdən Paris təmsilçisinə qoşulacaq.

Qeyd edək ki, Avstraliyanın "Sentra Kost Mariners" klubunda çıxış edən Useyn Bolt cari ilin yanvarında futboldan getdiyini açıqlamışdı.



# Dünya idmanı





## Britaniyalı alman pilotu keçdi

Böyük Britaniyalı pilot Lyuis Hemilton ümumi gəlirinə görə Formula- 1 tarixində ən yüksək nəticə əldə edib.

Ötən mövsümdə Hemilton öz komandası ilə müqavilənin müddətini uzadıb.

Razılaşmaya görə, britaniyalı hər mövsüm üçün 50 milyon dollar alacaq. 34 yaşlı Hemiltonun Formula 1 karyerasında ümumi gəliri əməkhaqqı və bonuslar da daxil olmaqla 489 milyon dollara çatıb.

Bu göstərici üzrə liderlik 1999-cu ildən etibarən Formula 1 yürüşlərinin yeddiqat çempionu, almaniyalı Mixael Şumaxerə məxsus idi. O, karyerası boyu 464 milyon dollar qazanıb. Reytinq cədvəlində üçüncü yeri ötən il Formula 1 yarışlarında karyerasını başa vuran ispaniyalı Fernando Alonso (458 milyon dollar) tutur.

2007-ci ildə Kral yürüşlərində trasa çıxan Hemilton Formula 1-in beşqat çempionudur.

## Ağalar Tərlan oğlu Aslanov



*Azərbaycan güləş ictimaiyyətinə ağır itki üz verib. Əməkdar məşqçi, bir müddət yunan-Roma üzrə gənclərdən ibarət yığmaya məşqçilik etmiş Aslanov Ağalar Tərlan oğlu aprelin 2-də 65 yaşında vəfat edib.*

Ağalar Aslanov 1954-ci il, fevralın 8-də Bakı şəhərində anadan olub. 1971-ci ildən yunan-Roma güləşi ilə məşğul olub və 1973-cü ildə SSRİ idman ustası normasını yerinə yetirib. 10 qat Azərbaycan çempionu idi. O, 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirdikdən sonra fasiləsiz olaraq məşqçilik fəaliyyəti ilə məşğul olub. Ağalar Aslanovun güləş sahəsində xidmətləri 1992-ci ildə qiymətləndirilərək, ona Azərbaycanın "Əməkdar məşqçisi" fəxri adı verilib.

Ağalar Aslanov 1993-2011-ci illərdə (18 il ) yunan-Roma güləşi üzrə gənclərdən ibarət respublika yığma komandasının böyük məşqçisi vəzifəsində işləyib. Bu illər ərzində başçılıq etdiyi yığma komandanın üzvüləri Avropa və dünya çempionatlarında 18 qızıl, 10 gümüş, 11 bürünc medal qazanaraq müxtəlif idman yarışlarında ölkəmizin bayrağını qaldırmış, hımnimizi səsləndirmişlər. Onun yetirməsi və şəxsi tələbəsi Vüqar Aslanov 1985-ci ildə gənclər arasında dünya çempionu titulunu qazanıb. Yığma komandada məşqçilik etdiyi dövrdə Fərid Mansurov, Toğrul Əsgərov, Rovşən Bayramov,Vitali Rəhimov, Rəsul Cunayev, Həsən Əliyev, Elvin Mürsəliyev, Tahir Zahidov, Ceyhun Zahidov, Taleh İsrafilov, Rafiq Hüseynov, Qadir Süleymanov, Kamran Məmmədov, Orxan Əhmədov dəfələrlə gənclər arasında dünya və Avropa çempionu və mükafatçıları olmuşlar. Bu çempionlar sonradan Olimpiya Oyunlarında çıxış edərək ölkəmizə qızıl (Fərid Mansurov, Toğrul Əsgərov) gümüş (Rovşən Bayramov,Vitali Rəhimov) və bürünc (Rəsul Cunayev) medal qazandırıblar.

Ağalar Aslanov özündən sonra zəngin və mənalı ömür yolu qoyub gedib. Əməkdar məşqçinin əziz xatirəsi idman ictimaiyyətinin və onu sevənlərin qəlbində daim yaşayacaqdır. Allah rəhmət eləsin!

*Azərbaycan Güləş Federasiyası*

## Həbib rəqibini qorxaq adlandırıb

Qarışıq döyüş növlərinin (MMA) UFC 229 kateqoriyası üzrə ən güclü idmançılardan olan rusiyalı Həbib Nurməhəmmədov irlandiyalı rəqibi Konor Makqreqor haqqında sərt fikirlər söyləyib.

Həbib karyerasına son qoyduğunu açıqlayan Makqreqoru qısqanc bir həyat yoldaşına bənzədib: "Konor teztez qərar dəyişdirən bir insandır. Sabah da geri qayıtdığını açıqlayar, hər kəs də bu xəbərdən yazar. UFC ilə müqavilə məsələsində razılaşmayıb karyerasına son qoyarsa, onların itirəcəklərini anlamaları üçün təzyiq göstərmək istəyir. Bu, federasiya ilə görüşmələr üçün yeridilən siyasətdir. Mən də onlarla müzakirə aparmağın çətin olduğunu bilirəm".

Qeyd edək ki, Konor Makqreqor karyerasına son qoyduğunu açıqlayıb. Makqreqor ötən ilin oktyabr ayında Həbibə məğlub olmuşdu. Daha sonra iki döyüşçü və onların məşqçiləri arasında insident yaşanmışdı. Konor





Həbibin dininə, ailəsinə, ölkəsinə və şəxsiyyətinə təhqirlər yağdırmışdı. Daha sonra isə onu revanş döyüşünə çağırmışdı. Lakin Həbib bu təklifi qəbul etməyib.

## *Tina Kandelakiyə təklif gəlib*

Rusiyanın "Matç TV" kanalının baş prodüsseri Tina Kandelaki "Russia Today" (RT) şirkəti ilə əməkdaşlıq məsələsi barədə danışıb.

O deyib: "Optimist insanları sevindirərək deyim ki, bu, zarafat deyil və mənim RT şirkəti ilə müqaviləm var. Mən onlarla əməkdaşlıq edəcəyəm və daha ciddi mövzulara toxunmağı düşünürəm"

## Qvardiola: "Mən onun atası deyiləm"

"Mançester Siti" klubunun baş məşqçisi Benjamen Mendinin "Fulhem"lə oyundan əvvəl səhərə kimi gecə klubunda vaxt keçirməsinə münasibət bildirib.

"Oyunçular kifayət qədər yetişkin insanlardırlar və öz hərəkətlərinə cavabdeh olmalıdırlar.

Mən onun atası deyiləm. Mən də istəyərdim ki, Mendi evə vaxtında qayıtsın. Belə şəraitdə onlara nəzarət edə bilmərəm axı".

Xatırladaq ki, Mendi bu mövsümdə dizindən aldığı zədəyə görə 12 həftəni yaşıl meydana çıxmayıb. Yanvar ayında "Berton"la oyuna çıxan "Mançester Siti"nin müdafiəçisi yenidən zədələnib.

## *Komanda yoldaşı Lebrona kömək etdi*

"Leykers" klubunun hücumçusu Kayl Kuzma komanda yoldaşı Lebron Ceymsə kömək edib. Belə ki, "Oklahoma" ilə oyunda basketbol əfsanəsinin boyunbağısı açılaraq yerə düşüb. Kayl Kuzma özünü itirməyərək boyunbağını yenidən boynuna asmaqda Lebrona kömək edib.

Məlumat üçün bildirək ki, "Leykers" klubu pley-off mərhələsini adlaya bilməyib.




olimpnews.az - sizin saytınız







## Salanın ölümü ilə bağlı acı məqam

La-Manş boğazında təyyarə qəzasına düşərək vəfat edən Emiliano Salanın ölümü ilə bağlı dəhşətli xəbər yayılıb.

Pilot David İbbotson rəng korluğundan (daltonizm) əziyyət çəkirmiş. Bu xəstəliyinə görə, pilot gecə uçuşları həyata keçirmirdi. Bundan əlavə, İbbotsonun xüsusi təyyarə ilə uçuş həyata keçirməsi üçün lisenziyası da olmayıb. Qoza günü hava olduqca dumanlı olub və bu, pilotun işini çətinləşdirib.

La-Manşın dərinliklərindən ABŞ istehsalı olan "Piper-P46 Malibu" markalı təyyarənin qalıqlarında Salanın cəsədi tapılmışdı. 59 yaşlı pilot isə hələ də itkin hesab edilir. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.

Qeyd edək ki, argentinalı futbolçu Fransanın "Nant" klubundan İngiltərə Premyer Liqa təmsilçisi "Kardif Siti"yə 15 milyon funt-sterlinqə transfer edilib.

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi

**Ağalar Aslanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi

**Ağalar Aslanovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19